# 15 İYUN MİLLİ QURTULUŞ GÜNÜDÜR




*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı | 15 iyun 2023-cü il №23 (9031) | www.muallim.edu.az muallim@edu.gov.az


Mənə bu gün böyük etimad göstərdiyinə görə Milli Məclisin üzvlərinə, Azərbaycanın Ali Sovetinə minnətdarlığımı bildirirəm və sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib bu böyük vəzifəni, ağır bir yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Mən burada böyük bir nitq söyləmək niyyətində deyiləm. Yalnız bir neçə kəlmə mütləq deməliyəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harda olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm.

**Ümummilli Lider Heydər Əliyevin 15 iyun 1993-cü ildə Milli Məclisdəki çıxışından**

# Böyük xilaskar

## QALİB ÖLKƏNİN QALİB GƏNCLƏRİ

### Elm və təhsil naziri Naxçıvanda "Son zəng" tədbirində

### Paytaxt məktəblilərinin "Son zəng" sevinci

⇨Bax səh.3

## 98649 nəfər XI sinif şagirdi üçün "Son zəng" çalındı

2022-2023-cü tədris ilində ümumi təhsil müəssisələrində təhsilalanların sayı 1707279 nəfər təşkil edib. Cari tədris ilində ümumi təhsil müəssisələrində 98649 nəfər XI sinfi, 145597 nəfər isə IX sinfi bitirir. Bu tədris ilində ölkə üzrə 151560 şagird birinci sinfi bitirir. Ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarında 90666 uşaq təhsil alıb.









# QALİB ÖLKƏNİN QALİB GƏNCLƏRİ

## Elm və təhsil naziri Naxçıvanda "Son zəng" tədbirində






İyunun 14-də elm və təhsil naziri Emin Əmrullayev Naxçıvan şəhəri Heydər Əliyev adına tam orta məktəbdə keçirilən "Son zəng" tədbirində iştirak edib.

Tədbirdən əvvəl Naxçıvan şəhərində Ümummilli Lider Heydər Əliyevin xatirəsinə ucaldılmış abidə ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Daha sonra Heydər Əliyev Muzeyi ilə tanışlıq olub.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Elm və təhsil naziri Emin Əmrullayev 2023-cü ilin "Heydər Əliyev İli" olduğunu xatırladaraq "Son zəng" tədbirinin Naxçıvanda Ulu Öndərin adını daşıyan məktəbdə keçirilməsinin əhəmiyyətini qeyd edib.

2022-2023-cü tədris ilinə Ağalı kənd tam orta məktəbində ilk zənglə başlanıldığını xatırladan Emin Əmrullayev tədris ili çərçivəsində Talış və Suqovuşan kənd tam orta məktəblərinin də istifadəyə verilməsini qürurverici hadisə olaraq qiymətləndirib.

Çıxışının sonunda məzunları təbrik edən elm və təhsil naziri təkcə akademik nailiyyətlərə deyil, həm də vətəndaş dəyərlərinə malik olmağın vacibliyini bildirib.

Daha sonra Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov məzunları təbrik edib, onlara gələcək həyatlarında nailiyyətlər arzulayıb.

Tədbir ədəbi-bədii kompozisiyalarla davam etdirilib.

Qeyd edək ki, 2022-2023-cü tədris ilində ölkə üzrə 98649 nəfər XI sinfi bitirir. Onlardan 3166 nəfəri Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərindən məzun olur.





## Paytaxt məktəblilərinin "Son zəng" sevinci

### Vətənə, xalqa, dövlətə layiqli gənclər

İyunun 14-də Bakı şəhəri 229 nömrəli tam orta məktəbdə "Son zəng" tədbiri keçirilib.

Tədbirdə Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri Mehriban Vəliyeva, Nizami Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Coşqun Cəbrayılov, Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov, Milli Qəhrəman Yuri Kovalyovun qardaşı Vitali Kovalyov, ictimaiyyət nümayəndələri, məktəb rəhbərliyi, müəllimlər, valideynlər və məzunlar iştirak ediblər.

Tədbir Dövlət Himninin səsləndirilməsi və Vətən şəhidlərinin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Salamlama nitqi ilə çıxış edən məktəbin direktoru Vüsalə Məmmədova məzunları təbrik edib və onlara gələcək həyatlarında uğurlar diləyib. V.Məmmədova rəhbərlik etdiyi təhsil ocağında ümumilikdə 1537 şagirdin təhsil aldığını, onlardan 107 nəfərin bu il məzun olduğunu diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli məzunları XI sinfi uğurla başa vurmaları münasibətilə təbrik edib, onlara gələcək təhsil həyatında nailiyyətlər arzulayıb, şagirdlərin Vətənə, xalqa, dövlətə layiqli gənclər, şəxsiyyətlər kimi yetişəcəyinə əminliyini ifadə edib. M.Kərimli ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı, Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə ümumi təhsil müəssisələrinin infrastrukturunun yaxşılaşdırılması istiqamətində görülən işlərin gələcəyimiz olan gənclərə daha yaxşı təhsil imkanı yaratmağa xidmət etdiyini, təhsilin əlçatanlığını təmin etmək və savadlı nəsil yetişdirmək olduğunu vurğulayıb.











BŞTİ-nin müdiri Mehriban Vəliyeva dərs ilinin başa çatması münasibətilə bütün təhsil iştirakçılarını - müəllim və şagirdləri, valideynləri, xüsusilə də məktəb həyatını başa vuran və müstəqil həyata atılan məzunları təbrik edib. İdarə müdiri ötən tədris ilində paytaxtın təhsil həyatında yaddaqalan məqamlardan, həyata keçirilən uğurlu layihələrdən, yeniliklərdən danışıb. Bildirib ki, BŞTİ tərəfindən təhsildə keyfiyyətin davamlılığını təmin etmək, həmçinin ümumi təhsil sahəsində müasir dövrün çağırışlarına əsaslanmaqla inkişafı şərtləndirən dəyişikliklərə nail olmaq məqsədilə bütün imkanlar səfərbər edilib.

Məzunlara gələcək təhsil pillələrində uğurlar arzu edən M.Vəliyeva bu gün Azərbaycan məktəbinin yetirmələrinin Vətən müharibəsində möhtəşəm zəfər qazanan qalib ölkənin savadlı, bacarıqlı gəncləri olaraq azad Qarabağın yenidən qurulmasına öz layiqli töhfəsini verəcəklərinə əminliyini bildirib.

Nizami RİH başçısı Coşqun Cəbrayılov "Son zəng" münasibətilə məzunları təbrik edib. C.Cəbrayılov ölkəmizdə təhsil sektorunda ilbəil nəzərə çarpan inkişaf prosesindən, son illərdə təhsil sahəsində aparılan islahatlardan danışıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə icra edilən inkişaf proqramlarının təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyilləri yaratdığını söyləyib.

YAP Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov və Milli Qəhrəman Yuri Kovalyovun qardaşı Vitali Kovalyov çıxışı zamanı məzunları təbrik edib, onlara Azərbaycanın inkişafı naminə layiqli vətəndaş, peşəkar mütəxəssis kimi yetişməyi tövsiyə ediblər.

Daha sonra çıxış edən məzunlar və onların valideynləri dövlətin məktəbə, təhsil işçilərinə yaratdığı şərait, istedadlı şagirdlərə göstərdiyi diqqətdən danışıblar.

Tədbir məzunların hazırladıqları ədəbi-bədii kompozisiyalarla davam etdirilib.

# Naxçıvanda STEAM Mərkəzi açılıb

İyunun 14-də Naxçıvan şəhərində STEAM Mərkəzinin açılış mərasimi keçirilib.

Açılış mərasimində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, elm və təhsil naziri Emin Əmrullayev, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov və digər qonaqlar iştirak ediblər.

Qonaqlar mərkəzdə yaradılan şəraitlə tanış olublar. Məlumat verilib ki, zəruri avadanlıqlarla təmin olunan mərkəzdə xüsusi istedadı ilə seçilən bacarıqlı şagirdlərin təhsil alması nəzərdə tutulur.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikasında yerləşən 212 məktəbin 156-da STEAM kabinetləri yaradılıb. 400-dən çox müəllim STEAM təlimlərinə, 19 minə yaxın şagird isə STEAM təhsilinə cəlb olunub.







## Akkreditasiya Şurasının yeni tərkibdə ilk iclası keçirilib



İyunun 8-də Elm və Təhsil Nazirliyinin Akkreditasiya Şurasının yeni tərkibdə ilk iclası keçirilib.

İclasda bir sıra ali təhsil müəssisələrində həyata keçirilmiş institusional akkreditasiya qiymətləndirməsi əsasında müvafiq komissiyalar tərəfindən hazırlanmış hesabat və təhlillər təqdim edilib.

Müzakirənin yekununda keçirilmiş səsvermənin nəticələrinə uyğun olaraq, Azərbaycan Texniki Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetinin institusional akkreditasiya nəticələri "əsasən uyğundur" hesab edilərək növbəti 5 il müddətinə, Sumqayıt Dövlət Universitetinin institusional akkreditasiya nəticəsinin isə "qismən uyğundur" hesab edilərək qüvvədə olan akkreditasiya şəhadətnaməsinin müddətinin növbəti 2 il uzadılması və təhsil müəssisəsinin 1 ildən sonra təkrar akkreditasiya edilməsi qərarı alınıb.

Bundan başqa, qaydalara uyğun olaraq, institusional akkreditasiyası 2023-cü ildə nəzərdə tutulmuş Naxçıvan Dövlət Universitetinin mövcud akkreditasiya şəhadətnaməsinin etibarlılıq müddətinin 1 ilədək uzadılması ilə bağlı müraciəti müzakirə edilərək şurada səsverməyə qoyulub və institusional akkreditasiyanın keçirilməsinin 2024-cü ilə təyin edilməsi barədə qərar qəbul edilib.

Qeyd edək ki, Akkreditasiya Şurasına elm və təhsil naziri Emin Əmrullayev sədrlik edir. Şuranın iclasları Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"na uyğun olaraq təşkil olunur. İclaslarda təhsil və ya müvafiq elmi-tədqiqat sahələrinin mütəxəssisləri, işəgötürənlər, təhsilalanlar, eləcə də tabeliyində təhsil müəssisəsi olan nazirlik, təşkilat və idarələrin, qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak edirlər.

## Birgə Hökumətlərarası Komissiyanın III iclası

Cənubi Koreyanın Seul şəhərində Azərbaycan və Koreya hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın üçüncü iclası çərçivəsində Azərbaycan-Koreya Biznes Forumu keçirilib.

Birgə Komissiyanın Koreya Respublikası tərəfindən həmsədri, bu ölkənin ticarət, sənaye və energetika nazirinin müavini Jeonq Daejin Azərbaycan nümayəndə heyətini salamlayaraq Azərbaycan ilə Koreyanın yüksək iqtisadi və mədəni əlaqələrə malik dost ölkələr olduğunu diqqətə çatdırıb.

İclas zamanı qarşılıqlı investisiyalar, sənaye, ticarət, kənd təsərrüfatı, energetika, təhsil, səhiyyə, mədəniyyət və turizm sahələrində əməkdaşlıq imkanlarına dair müzakirələr aparılıb.

Azərbaycan Respublikası tərəfindən Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov çıxış edərək Azərbaycan və Koreya arasında təhsil sahəsində əlaqələrin dinamik inkişafını vurğulayıb, eləcə də təcrübə mübadiləsi baxımından bu istiqamətdə əməkdaşlığın əhəmiyyətini diqqətə çatdırıb. Vüsal Xanlarov ümumi təhsil müəssisələrində çalışan təhsilverənlərin bacarıqlarını təkmilləşdirmək məqsədilə "Müəllimlərin potensialının artırılması və Azərbaycan Respublikasının Təhsil Nazirliyi üçün təhsil informasiya sisteminin yaradılması" texniki yardım layihəsindən bəhs edib.

Vüsal Xanlarov Koreya təhsil standartları əsasında fəaliyyət göstərən Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin fəaliyyəti, həmçinin Koreya və Azərbaycanın ali təhsil müəssisələri arasında ikili diplom proqramı barədə iştirakçılara məlumat verib.

Sonda hökumətlər arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın üçüncü iclasının protokolu imzalanıb.

## "Tarixə yazılmış ömür" kitabının təqdimatı olub



İyunun 8-də Bakı Dövlət Universitetində tanınmış ictimai-siyasi xadim Lidiya Rəsulovaya həsr olunmuş "Tarixə yazılmış ömür" kitabının təqdimat mərasimi keçirilib.

Mərasimdə çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov qeyd edib ki, Lidiya Rəsulova işlədiyi bütün vəzifələrdə məsuliyyətlə çalışan, vətənini, dövlətini sevən, yüksək mənəviyyata malik insan olub. Buna görə də Lidiya Rəsulovanın xidmətləri bu gün də hörmətlə yad edilir. Bildirilib ki, Lidiya Rəsulova 1981-1988-ci illərdə Həmkarlar İttifaqları Şurasının sədri olarkən Azərbaycanda istirahət və idman mərkəzlərinin yaradılmasına xüsusi diqqət yetirib. 1993-1997-ci illərdə təhsil naziri vəzifəsində işləyərkən nazirliyin yeni strukturu formalaşıb, ciddi islahatlar aparılıb. Nazir müavininin sözlərinə görə, Lidiya Rəsulova prinsipial və düzgün qərarlar qəbul etmək bacarığına malik dövlət xadimi idi.

Milli Məclisin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri Hicran Hüseynova çıxışında bildirib ki, Lidiya Rəsulova Ümummilli Lider Heydər Əliyev məktəbinin ən parlaq nümayəndəsi idi. Lidiya Rəsulova həm də Azərbaycanda qadın hərəkatının öncüllərindən olub.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin vitse-prezidenti Xaliq Məmmədov da Lidiya Rəsulovanın ictimai-siyasi fəaliyyəti və xidmətləri ilə bağlı fikirlərini bildirib, onun əziz xatirəsinin həmişə yaddaşlarda yaşayacağını qeyd edib.

Daha sonra kitabın müəllifi, jurnalist Dilarə Rüstəm, Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitutunun direktoru Misir Mərdanov və bir sıra çıxışçılar Lidiya Rəsulovanın Azərbaycan dövlətçiliyi qarşısında xidmətlərini vurğulayıb, onunla bağlı xatirələrini səsləndiriblər.

Tədbirin sonunda Lidiya Rəsulovanın xatirəsinə həsr edilmiş "Tarixə yazılmış ömür" filmi nümayiş olunub.

## Türkiyəli məktəblilər Şuşada




Türkiyə Respublikasının Ankara şəhərinin ümumi təhsil müəssisələrinin şagird və müəllimləri, həmçinin Milli Təhsil Nazirliyinin əməkdaşlarından ibarət nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.

İyunun 8-də nümayəndə heyəti Şuşa şəhərinə səfər edib. Səfər çərçivəsində Şuşa şəhərinin tarixi-memarlıq abidələri, o cümlədən Bülbülün ev muzeyi, Yuxarı Gövhər ağa məscidi, Molla Pənah Vaqifin məqbərəsi, Şuşa qalası və Cıdır düzü ziyarət edilib.

Qonaqlara türk dünyasının mədəniyyət paytaxtı elan edilmiş Şuşa şəhərində aparılan quruculuq işləri, o cümlədən təhsil müəssisələrinin tikintisi haqqında ətraflı məlumat verilib.



# “Təhsilimiz: dünəndən sabaha”

## Əməkdar müəllim Asif Cahangirovun 75 illik yubileyinə həsr olunmuş elmi-praktik konfrans









İyunun 10-da Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Humanist Pedaqogika üzrə Beynəlxalq Təhsil Təşkilatları Assosiasiyasının prezidenti, Əməkdar müəllim Asif Cahangirovun 75 illiyinə həsr olunmuş “Təhsilimiz: dünəndən sabaha” adlı elmi-praktik konfrans keçirilib.

Elm və Təhsil Nazirliyi, Təhsilin İnkişafı Fondu, Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) və ADPU-nun təşkilatçılığı ilə keçirilən tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, millət vəkilləri, universitet rektorları ilə yanaşı Qazaxıstan, Yeni Zelandiya, Rusiya, Gürcüstan və Azərbaycandan elm və təhsil xadimləri qatılıblar.

Tədbirin keçirilməsində əsas məqsəd dünəndən sabaha yönələn təhsili müzakirə etmək, təhsildə keyfiyyətin yüksəldilməsinə nail olmaq üçün perspektivləri nəzərdən keçirmək, qabaqcıl beynəlxalq təcrübə və yeni yanaşmalarla tanış olmaqdır.

“T-Network” platformasının rəhbəri Cəfər Mənsiminin moderatorluğu ilə keçirilən tədbirdə öncə Əməkdar müəllim Asif Cahangirovun həyat və elmi-pedaqoji fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib. Videoçarxda Asif Cahangirovun müasir Azərbaycan təhsilinə yanaşmaları, bir neçə xarici səfərlərindən franqmentlər əksini tapıb.

Tədbiri giriş sözü ilə açan ADPU-nun rektoru professor Cəfər Cəfərov Asif Cahangirovun elmi-pedaqoji fəaliyyətindən söz açıb. A.Cahangirovun təhsil sahəsində zəngin təcrübə və dayanıqlı səriştələrə malik olduğunu bildirən rektor belə tədbirlərin keçirilməsinin əhəmiyyətini vurğulayıb. Elm və Təhsil Nazirliyinin dəstəyi ilə ADPU-da tanınmış alimlərin, elm adamlarının irsinin təbliği məqsədilə bu kimi elmi-praktik konfransların vaxtaşırı təşkil olunduğunu sözlərinə əlavə edib.

Elm və təhsil naziri Emin Əmrullayev tədbirdə çıxış edərək son bir əsrdə Azərbaycan təhsilinin inkişafının müxtəlif ictimai-siyasi şəraitlərdən keçərək bir çox sınaqlara məruz qaldığını diqqətə çatdırıb.

Vətən müharibəsindəki tarixi zəfərimizə toxunan Emin Əmrullayev diqqətə çatdırıb ki, bu il ilk dünyəvi məktəbimiz olan Şuşa şəhəri 1 nömrəli məktəbin təmirdən sonra açılışı olacaq. Bu, tarixi zəfərimizin və Azərbaycan təhsilinin böyük simvoludur.

Azərbaycan təhsilində tədqiqatlara əsaslanan elmiliyi artırmağın zəruriliyini vurğulayan nazir “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda 2026-cı ilə qədər olan dövr üçün təhsilin inkişafı baxımından əsas hədəflərin əks olunduğunu və bu istiqamətdə planlı fəaliyyətin icra edildiyini bildirib.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışının sonunda qeyd edib ki, təhsilin inkişafında son illərin əhəmiyyətli yanaşmalarından biri də Azərbaycanın beynəlxalq qiymətləndirmə tədqiqatlarına qatılmasıdır.

Tədbirdə yubilyar Asif Cahangirov qonaqları və tədbir iştirakçılarını salamlayaraq “Təhsilimiz: dünəndən sabaha” mövzusunda slaydlar vasitəsilə çıxış edib. A.Cahangirov müasir təhsilin qarşımıza qoyduğu tələblərdən söz açıb. Təhsildə yeni çağırışlar və yanaşmalardan danışan Əməkdar müəllim səriştəəsaslı, hümanist təhsilin əhəmiyyətini xüsusi vurğulayıb.

Humanist Pedaqogika üzrə Beynəlxalq Mərkəzin fəxri prezidenti Şalva Amonaşvili, Yeni Zelandiyadan olan təhsil üzrə məsləhətçi Qreem Pollok, Bakı Slavyan Universitetinin prorektoru Ənvər Abbasov, BŞTİ-nin müdiri Mehriban Vəliyeva və digərləri tədbirdə çıxış edərək Asif Cahangirovun təhsilə yeni pedaqoji yanaşmalarının əhəmiyyətindən danışıblar.

Tədbirdə Asif Cahangirova Humanist Pedaqogika üzrə Beynəlxalq Mərkəzin ali mükafatlarından olan “Ruh qəhrəmanı” ordeni təqdim olunub.

**Niyazi RƏHİMOV**

# Elm sahəsində ilkə imza atıldı







İlk dəfə olaraq Azərbaycanın özəl və dövlət ali təhsil müəssisələri, eləcə də bütün elmi-tədqiqat institutları üçün dünyanın ən böyük elmmetrik bazası olan “Scopus”a çıxış imkanı təmin ediləcək. Bu məqsədlə iyunun 14-də Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) ilə “Elsevier” şirkəti arasında müqavilə imzalanıb.

İmzalanma mərasimində elm və təhsil nazirinin müavini İdris İsayev, “Elsevier” şirkətinin regional direktoru Tayfun Basal, elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli, TKTA-nın İdarə Heyətinin sədri Ülkər Səttarova, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru Rasim Əliquliyev və digər qonaqlar iştirak ediblər.

“Scopus” elmmetrik bazasının müxtəlif resurs və alətlərinə çıxış imkanı verən müqavilənin imzalanması təşəbbüsünü yüksək qiymətləndirən nazir müavini İdris İsayev bildirib ki, bu resurslardan ölkəmizin 100-dən çox dövlət və özəl qurumlarında çalışan alim və tədqiqatçılar, həmçinin tələbələr bəhrələnəcəklər.

Nazir müavini qeyd edib ki, imzalanan müqavilə elmmetrik bazalara əlçatanlığı təmin etməklə gələcəkdə elmi nəticələrin kəmiyyət və keyfiyyət göstəricilərinin yaxşılaşdırılmasına təkan verəcək.

Çıxış edən digər qonaqlar bildiriblər ki, elmi-tədqiqat müəssisələri və tədqiqatçıların “Scopus”da profillərinin təkmilləşdirilməsi onların elmi fəaliyyətinə əlçatanlığın artmasına, dünyadakı digər elmi qurum və alimlərlə əməkdaşlığına xidmət edəcək.

Müqavilənin imzalanması mərasimindən sonra ali təhsil müəssisələri və elmi-tədqiqat institutlarının müvafiq əməkdaşları üçün “Scopus” və “ScienceDirect” bazalarının istifadəsi ilə bağlı təlim keçirilib.

Qeyd edək ki, “Scopus” ən böyük elmmetrik baza olmaqla yanaşı, həm də beynəlxalq reytinqlər üzrə universitetlərin elmi-tədqiqat göstəricilərinin hesablanması üçün istifadə edilən platformadır.

# “Mənim dayanıqlı həyat tərzim”

## Proqramda dünyanın müxtəlif ölkələrindən 1000 nəfər iştirak haqqı qazanıb

BMT-nin Ətraf Mühit Proqramı (UNEP), həmçinin BMT-nin Sistem işçiləri kolleci (UNSSC) tərəfindən “Mənim dayanıqlı həyat tərzim” adlı proqrama start verilib.

Proqramın məqsədi uşaq və gənclərin daha yaxşı, sağlam, ədalətli prinsiplərə uyğun yaşam tərzi seçmələrinə, eləcə də dayanıqlı addımların atılması üçün əsaslandırılmış məlumatlar əldə etmələrinə şərait yaratmaqdır.

Proqramda iştirak üçün dünyanın müxtəlif ölkələrindən 3500-dən çox müraciət daxil olub və onlardan 1000 nəfəri iştirak haqqı qazanıb. Azərbaycandan ilk dəfə olaraq Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin ekoklub üzvləri, “EkoSfera” Sosial-Ekoloji Mərkəz İctimai Birliyinin könüllü və gənc əməkdaşları sırasından 45 nəfər proqramda iştirak imkanı əldə edib.

Qeyd edək ki, sözügedən proqram insanları gündəlik həyatlarında daha dayanıqlı davranış seçimlərinə cəlb edən innovativ öyrənmə platformasıdır. Proqram 5 iyun-17 iyul tarixlərini əhatə edəcək.

# AzMİU tələbələri üçün daha bir şirkətdə təcrübə və iş imkanı

“Kristal Abşeron” Müşahidə Şurasının sədri Mahayət Nəbiyev və rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) olub.

Rektor professor Gülçöhrə Məmmədova qonaqlara AzMİU haqqında ətraflı məlumat verib.

Professor G.Məmmədova qeyd edib ki, AzMİU-da mühəndislik ixtisasları üzrə təhsil alan tələbələrin “Kristal Abşeron” şirkəti tərəfindən reallaşdırılan böyükmiqyaslı layihələrə cəlb edilməsi onların praktik biliklərə yiyələnməsi üçün müstəsna fürsətlər yarada bilər.

AzMİU ilə əməkdaşlıqda maraqlı olduqlarını deyən Mahayət Nəbiyev “Kristal Abşeron” şirkətinin fəaliyyət istiqamətləri, həyata keçirdiyi layihələr haqqında geniş məlumat verib.

Görüş zamanı iki qurum arasında əməkdaşlıq imkanları, əlaqələrin gücləndirilməsi üçün vacib olan amillər, xüsusilə təhsil, elm və istehsalat üçbucağının yaradılması, davamlı, həmçinin səmərəli əməkdaşlığın təmin edilməsi ilə bağlı müzakirələr aparılıb.

Görüşün sonunda AzMİU ilə “Kristal Abşeron” şirkəti arasında əməkdaşlığa dair memorandum imzalanıb.

Memorandumda əməkdaşlığın bir sıra istiqamətləri, o cümlədən AzMİU tələbələrinin “Kristal Abşeron” şirkətində təcrübəyə cəlb edilməsi, universitet məzunları üçün karyera imkanları, birgə konfrans və simpoziumların təşkili, təcrübə mübadiləsi kimi məsələlər əks olunub.

# II Bakı Elm Olimpiadasının qalibləri mükafatlandırılıb



Yarışlar şagirdlərin nəzəri və təcrübi biliklərini təkmilləşdirir, onlara beynəlxalq və yerli olimpiadalarda iştirak təcrübəsi qazandırır



İyunun 12-də Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş II Bakı Elm Olimpiadası qaliblərinin mükafatlandırılma mərasimi keçirilib. Olimpiada Bakıda yerləşən ümumi təhsil müəssisələrinin şagirdləri arasında təşkil edilib.

Tədbirdə Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli, elm və təhsil nazirinin müşaviri Nigar Bağırlı, Bakı Ali Neft Məktəbinin (BANM) rektoru Elmar Qasımov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri Mehriban Vəliyeva, millət vəkilləri, nazirlik yanında İctimai Şuranın sədri Günel Səfərova və digər qonaqlar iştirak ediblər.

Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə II Bakı Elm Olimpiadası barədə videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli istedadlı şagirdləri vaxtında aşkara çıxarmaq, onları daim həvəsləndirmək, yaradıcılığa və elmə maraqlarını artırmaq məqsədilə keçirilən müsabiqə, eləcə də olimpiadaları yüksək qiymətləndirib.



Aparat rəhbəri əlavə edib ki, təşkil edilən yarışlar şagirdlərin nəzəri və təcrübi biliklərini təkmilləşdirir, onlara beynəlxalq və yerli olimpiadalarda iştirak təcrübəsi qazandırır.

BŞTİ-nin müdiri Mehriban Vəliyeva da öz növbəsində II Bakı Elm Olimpiadasını yüksək təhsilli, intellektual Azərbaycan gəncliyinin yetişməsinə hər zaman qayğı ilə yanaşan Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə məktəblilərin ən dəyərli töhfəsi kimi dəyərləndirib.

BANM-in rektoru Elmar Qasımov belə olimpiadaların şagirdlərin bilik və bacarıqlarının artırılmasına, təlim motivasiyasının yüksəldilməsinə müsbət təsir göstərdiyini deyib, qaliblərə uğurlar arzulayıb.

Daha sonra müsabiqə üzrə I, II, III yerlərin qalibi olan şagirdlərə medal, diplom və hədiyyələr təqdim olunub.

# IV siniflərdə monitorinq

## Qiymətləndirmədə şagirdlərin 98 faizi iştirak etdi

İyunun 10-da ölkə üzrə IV sinif şagirdlərinin monitorinq qiymətləndirilməsi həyata keçirilib.

Bütün ölkəni əhatə edən monitorinqdə bu il Naxçıvan MR də daxil olmaqla 157040 IV sinif şagirdindən 153447 nəfər iştirak edib. Bu da ibtidai təhsil səviyyəsini bitirənlərin 98 faizidir.

Ötən ildən keçirilən monitorinqdə 120 dəqiqə ərzində verilmiş mətnlərlə iş əsasında şagirdlərin oxuduğunu nə dərəcədə anladığı və riyazi bacarıqları qiymətləndirilir.

Monitorinqi Bakı Şəhəri üzrə Təhsil İdarəsi və regional təhsil idarələri təşkil edib. Sinif nəzarətçiləri ibtidai təhsil, tədris dili və riyaziyyat fənləri üzrə müəllimlər istisna olmaqla, digər fənn müəllimlərindən təşkil olunub. Prosesdə 600 nəfərdən çox monitorinq rəhbəri və 6400 nəfər sinif nəzarətçisi iştirak edib. Monitorinqin keçirilməsində ciddi nöqsanlar aşkar olunmayıb.

Qeyd edək ki, monitorinq elm və təhsil nazirinin əmri ilə həyata keçirilib. Həmin əmrə əsasən Təhsil İnstitutu əvvəlcə monitorinqdə istifadə edilən qiymətləndirmə vasitələrini hazırlayıb. Sonra Xızı rayonu və Mingəçevir şəhərində IV sinif şagirdləri arasında tədris dili və riyaziyyat fənləri üzrə sınaq qiymətləndirmə keçirilib. Həmin sınaq qiymətləndirmə əsasında mütəxəssislərin hazırladığı qiymətləndirmə vasitələrinin təhsil proqramı çərçivəsində şagirdlərin bilik və bacarıqlarına uyğunluğu yoxlanıb.

Xatırladaq ki, IV siniflərdə monitorinqin məqsədi şagirdlərin səviyyəsini müəyyənləşdirib problemləri vaxtında aradan qaldırmaqdır.

### Şagird nəticələri beynəlxalq qiymətləndirmə tədqiqatlarına əsaslanacaq

IV siniflərdə monitorinqi növbəti keyfiyyət fəaliyyətlərindən biri kimi təqdim edən Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev bunun təhsilin keyfiyyətinin artırılmasına xidmət edəcəyini deyib. Onun sözlərinə görə, "Azərbaycan Respublikasının 2022-2026-cı illər sosial-iqtisadi inkişaf strategiyası"nda təhsillə bağlı keyfiyyət hədəfləri qeyd edilib. Şagird nəticələri ilə bağlı olan hədəflərin bir hissəsi beynəlxalq qiymətləndirmə tədqiqatlarına əsaslanıb. O, niyə beynəlxalq tədqiqatlara əsaslandığını da izah edib: "Nazirlik, ümumiyyətlə, azərbaycanlı şagirdlərin dünyadakı yaşıdları ilə müqayisədəki yerinin yaxşılaşmasına köklənən fəaliyyətlərə üstünlük verir. Biz deyirik ki, gəlin məktəblilərimizin nəticələrinə özümüzün hazırladığımız imtahan suallarına cavab verərək 600, ya da 200 bal yığması ilə yox, dünyada aparılan tədqiqatlara əsaslanaraq qiymət verək. Məsələn, PISA 15 yaşlı şagirdlərin dünya üzrə oxuyub anlama, riyaziyyat, təbiət elmləri üzrə qiymətləndirməsini aparır. Biz də 2025-ci ildə keçiriləcək bu tədqiqatda iştirak edərək uşaqlarımızın harda olduğunu müəyyənləşdirəcəyik. O cümlədən PIRLS-də iştirak edərək oxuyub anlamada IV sinif şagirdlərinin dünyadakı yerini biləcəcəyik. TIMSS 4-8-ci sinif şagirdlərinin oxuyub anlama, riyaziyyat və təbiət fənni üzrə bacarıqlarını yoxlayır".

Strategiyaya görə, Azərbaycan təhsildə öz mövqeyini yüksəltməli, şagirdlərin orta səviyyəsini artırmalıdır. Buna hazırlıq məqsədilə görülən işlər barədə məlumat verən E.Əliyevin sözlərinə görə, təhsilin keyfiyyətinə təsir edəcək islahatlara başlanılıb: "Hesab edirik ki, məzmun və keyfiyyət islahatlarına təməldən başlamalıyıq. Odur ki, prosesə ibtidai siniflərdən start verilib və iki istiqamətdə aparılır. Müəllimlərin hazırlıq səviyyəsinin artırılması bu istiqamətlərdən biridir və sertifikasiya imtahanları da ilk olaraq ibtidai sinif müəllimlərini əhatə etdi".

### Monitorinq niyə vacibdir?

Monitorinq şagirdlərin oxuyub-anlama və riyazi bacarıqlarını ölçür: "Bunlar vacibdir, çünki şagirdin bütün fənlərdə uğuru oxuduğunu necə anladığından asılıdır. Məsələn, riyazi bacarıq fizika, kimya, biologiya, informatika kimi fənləri mənimsəməyə kömək edir".

Hətta uşaqlar oxuyub anlaya bilməyəndə həvəsdən düşür, getdikcə təhsildən yayınırlar: "Yuxarı siniflərə qalxdıqca mətnlər mürəkkəbləşir və onlar oxuduqlarını anlamadıqlarından oxumağa həvəsləri sönür".

E.Əliyev bildirib ki, indiyədək məktəblərdə əsasən oxuma sürətinə fikir verirdilər: "Bu da müsbət haldır, amma əsas məsələ şagirdlərin oxuduqlarını anlamalarıdır. Oxuyub-anlama məktəbliyə verilməli olan ən vacib bacarıqdır".

Bu monitorinq də V sinifdən şagirdlər ilə işin istiqamətini, ibtidai sinif müəllimlərinin harda yanlışa yol verdiyini deməyə əsas verəcək: "Monitorinqlə məktəb şagirdlərinin hansı çətinliyinin olduğunu, onlara necə kömək edəcəyimizi müəyyənləşdiririk. Təhlillər əsasında gələcəkdə ibtidai təhsil alan uşaqların bu istiqamətdə daha yaxşı nəticə əldə etmələri üçün nə edə biləcəyimizə köklənirik. Eyni zamanda, monitorinq iştirakçısı olan şagirdlərlə V sinifdən iş aparılacaq".

Şagirdləri monitorinqdən zəif çıxan müəllimlərə isə bu istiqamətdə təlimlər veriləcək. Məsələn, ötən ilin tədqiqat nəticələri göstərib ki, IV sinifdə oxuyan şagirdlərin, demək olar, yarısı hər hansı mətni oxuyub əsas ideyanı anlamaqda çətinlik çəkir. Rəqəmlərə əsaslanan nazirlik rəsmisi bildirib ki, Bakıda, mərkəzi şəhərlərdə nəticələr yuxarı olsa da, ölkə üzrə oxuyub mətnin əsas fikrini anlamaqla bağlı çətinlik olduğu müəyyən edilib: "Biz artıq bilirik ki, ibtidai sinif müəllimləri ilə işləməliyik. Bu, müəllimlərin çətinliyidir. Növbəti ilin təlimlərində mətnin əsas ideyasını uşaqlara necə çatdırmağın taktika, strategiya, metodologiyasını öyrətməyə çalışacağıq. Ümid edirik ki, növbəti tədris ilində bu istiqamətdə yaxşılaşma olacaq".

Ötən il 152 min IV sinif şagirdindən 151 min nəfərinin imtahana qatıldığını vurğulayan E.Əliyev həmin imtahanın nəticələrindən bəzi maraqlı məqamlara diqqət çəkib: "Keçən il IV sinif monitorinqlərinin nəticəsinə görə, qızlar oğlanlara nisbətdə daha yüksək nəticə göstərib. Bu, dünyada da belədir, IV sinfin sonunda qızların nəticələri oğlanlardan daha yuxarıdır. Həmçinin Azərbaycan bölməsinin nəticələri rus bölməsi üzrə nəticələrdən yüksəkdir. Eyni zamanda, şagirdlər riyaziyyat fənnindən daha çox Azərbaycan dilindən yüksək bal toplayır. Bu da dünyanın çox yerində belədir".

Şöbə müdirinin sözlərinə görə, sözlərin alternativini tapmaqda çətinlik çəkən kifayət qədər şagirdimiz olub.

Qiymətləndirilmə monitorinqlərinin nəticələrinin şagirdin yuxarı sinfə keçirməsinə heç bir təsiri olmadığını xüsusi vurğulayan E.Əliyev deyib ki, hələlik oxuyub-anlama vəziyyəti öyrənilir: "Növbəti mərhələdə şagirdlərin biliyinin qiymətləndirilməsinə dinləyib-anlama bacarığı da əlavə olunacaq".

**Ruhiyyə DAŞSALAHLI**





# “IELTS klubu”na Bakı Slavyan Universiteti də qoşuldu



## BSU-da IELTS imtahanına təşviqlə bağlı üçtərəfli əməkdaşlıq müqaviləsi imzalanıb



Azərbaycan ali məktəblərinin müəllim və tələbələri arasında IELTS imtahanlarında 6.5-dən yuxarı nəticə göstərənlərin ödənişi Təhsilin İnkişafı Fondu tərəfindən qarşılanır. Kifayət qədər cəlbedici olan bu fakt elm və təhsil naziri Emin Əmrullayevin təşəbbüsü və Təhsilin İnkişafı Fondunun maliyyə dəstəyi ilə reallaşır. Ötən ilin oktyabr ayından başlayaraq artıq 6 ali təhsil müəssisəsi - Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Təhsilin İnkişafı Fondu (TİF) və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) birgə icra etdiyi bu layihənin tərəfdaşlarıdır. Layihə çərçivəsində IELTS imtahanında iştirak edən və yüksək bal toplayan 300-dək akademik heyət üzvü və tələbənin bu imtahan üzrə ödənişlərini TİF ödəyəcək.

### Layihədə yeni tərəfdaş: BSU 7-ci oldu

Bu həftə daha bir universitet - Bakı Slavyan Universiteti də tərəfdaşların siyahısına qoşuldu. İyunun 13-də universitetlə Təhsilin İnkişafı Fondu (TİF) və Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) arasında imzalanan “Universitetlərin elmi-pedaqoji heyət üzvləri və təhsilalanların IELTS imtahanına təşviq edilməsi haqqında” üçtərəfli əməkdaşlıq müqaviləsi ilə bu tərəfdaşlıq rəsmiləşib.

### Universitetlərin reytinqini yüksəltməyə hesablanan layihə

Məqsəd isə böyükdür. “Azərbaycan müəllimi” qəzetinə təşəbbüsün məqsədindən danışan Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov bildirib ki, IELTS imtahanının təşviq edilməsi məqsədi ilə həm elmi-pedaqoji heyət, həm də təhsilalanlar arasında imtahanın nəticələrinə uyğun olaraq yüksək, yəni 6.5 baldan yuxarı nəticəsi olanların IELTS imtahan xərcləri ödənilir. İndiyədək artıq 88 müəllim və tələbə bu imkandan yararlanıb: “Bu layihənin başlıca məqsədi dünya universitetlərinin reytinq siyahısında Azərbaycan universitetlərinin mövqeyinin artırılmasıdır. Ali təhsil müəssisələri bu sahədə nəzərəçarpacaq nəticələr əldə etmək üçün ingilis dili səviyyəsini artırmalıdırlar. İngilis dili təhsilin, elmin dilidir və bu baxımdan müəllim və tələbələrimizin ingilis dilində oxuma, yazma bacarıqlarının artırılması vacibdir. Çünki bu, müəllimlərimizə və təhsilalanlarımıza həm ingilis dilində müxtəlif elmi yazılar, araşdırmalarla tanış olmaq, həm də öz elmi məqalələrini ingiliscə yazmaq və onu beynəlxalq jurnallarda çap etdirmək imkanı verəcək”.

### İnkişaf üzrə strateji hədəfi olan universitetlər tərəfdaş ola bilər

2022-2023-cü illər üzrə daha 210 nəfərin də IELTS imtahanının ödənişinin Fond tərəfindən qarşılanacağını vurğulayan E.Nəsibov TİF və TKTA ilə üçtərəfli müqaviləni imzalayan universitetlərdən ibarət bir “IELTS klubu” formalaşdığını bildirib. Onun sözlərinə görə, bu kluba üzv, yəni, layihədə tərəfdaş olmaq üçün şərt var: “Bakı Slavyan Universiteti 7-ci ali təhsil müəssisəsi oldu ki, TKTA və TİF ilə üçtərəfli müqavilə imzaladı. Burada əsas şərt universitetin əsas fəaliyyət planının, inkişafı üzrə bir strateji hədəfinin olmasıdır”.

Rektor Anar Nağıyev layihənin BSU-nun yenidən təşkili və inkişafında öz töhfəsini verəcəyindən əmindir. Layihənin yaratdığı imkanlar bütün BSU ailəsi üçün perspektivlər açacaq: “Bakı Slavyan Universitetində çalışan müəllimlər və tələbələrimiz üçün çox əhəmiyyətli bir addımdır. Hesab edirəm ki, bu, sadəcə IELTS imtahanları kontekstində baxılmalı məsələ deyil, çox geniş prosesdir. Təhsilin növbəti səviyyələrində iştirak, kadrların inkişafı, onların beynəlxalq elmmetrik bazalarda çıxışları və karyeralarının inkişafı baxımından çox əhəmiyyətlidir”.

**Ruhiyyə DAŞSALAHLI**

# ALPLogo və SketchUp ümumrespublika yarışlarının qalibləri mükafatlandırılıb




İyunun 11-də Azərbaycanın orta və ali təhsil sistemində informatika fənninin təşəkkülündə və inkişafında əvəzsiz xidmətləri olan görkəmli alim və pedaqoq Ramin Mahmudzadənin xatirəsinə həsr edilmiş ALPLogo proqramlaşdırma olimpiadası və “Ən yaxşı üçölçülü model” müsabiqəsinin qaliblərinin mükafatlandırılma mərasimi keçirilib.

Bakı şəhəri 283 nömrəli tam orta məktəbdə təşkil olunan tədbirdə Təhsil İnstitutu yanında Tədris Resursları Mərkəzinin direktor müavini İsmayıl Sadıqov, mərkəzin şöbə müdiri Əsgər Quliyev, “Multimedia” İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz, “Paşa Sığorta” şirkətinin İnformasiya Texnologiyaları və İnnovasiyalar Departamentinin direktoru Cəmşid Naxçıvanski, ADA Universiteti School of IT & Engineering Məktəbinin professoru Mixail Medvedyev, “İdrak” liseyinin İnnovativ Təhsil Texnologiyaları Departamentinin rəhbəri Gülnarə Səlimova, Bakı şəhəri 267 nömrəli məktəb-liseyin informatika müəllimi Sənubər Məmmədova, 276 nömrəli tam orta məktəbin informatika müəllimi Əlinazim Mahmudzadə, qalib şagirdlər və onların müəllimləri iştirak ediblər. Mərasimdə öncə görkəmli pedaqoq Ramin Mahmudzadənin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.



Tədbiri Bakı şəhəri 283 nömrəli tam orta məktəbin informatika müəllimi, “İnformatika” dərsliklərinin həmmüəllifi, Əməkdar müəllim Naidə İsayeva giriş sözü ilə açaraq tanınmış alim Ramin Mahmudzadənin XX əsrin ikinci yarısından yeni yaranan kompüter elmlərinin (informatika) Azərbaycanda inkişafındakı böyük rolundan danışıb. Tanınmış pedaqoqun İT sahəsində ilk azərbaycanlı mütəxəssislər hazırlayan alim olduğu diqqətə çatdırılıb.

Sonra Bakı şəhəri 283 nömrəli tam orta məktəbin direktoru Sevinc Musayeva, Təhsil İnstitutu yanında Tədris Resursları Mərkəzinin direktor müavini İsmayıl Sadıqov, “Multimedia” İnformasiya Sistemləri Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz çıxış ediblər.

Çıxış edənlər informatikanın ən mühüm və vacib fənlərdən biri kimi əksər dünya ölkələrinin təhsil sistemlərində öyrənilməsinə xüsusi diqqət yetirilməsindən, onun insanın zehni inkişafına kömək etməsindən, məntiqi təfəkkürün formalaşmasında, mühakimə və dərketmə qabiliyyətlərinin yüksəlməsində vacib rolundan danışıblar.

Qeyd olunub ki, informatika insanların elmi, praktiki biliklərinin genişlənməsində, yeni ixtisaslara yiyələnməsində mühüm rol oynayır. İnformatika fənni insanları informasiyalaşmış cəmiyyətdə praktik həyati fəaliyyətə hazırlayır, dünyadakı elektron informasiya resurslarını təhlil etmək bacarıqlarını formalaşdırır.

Çıxışlarda son illər Azərbaycanda informatika fənninə marağın artmasından, istər Bakı , istərsə də respublikamızın müxtəlif bölgələrindən olan şagirdlərin bu fənn üzrə keçirilən olimpiada və müsabiqələrə həvəslə qatılaraq yüksək nəticələr əldə etmələrindən məmnunluq ifadə olunub. O da vurğulanıb ki, bu il ilk dəfə olaraq abituriyentlər informatika fənni üzrə qəbul imtahanı veriblər və bu da onun bir daha həyatımızdakı önəmini göstərir.

Çıxış edənlər ALPLogo və SketchUp ümumrespublika yarışları qaliblərini və onların müəllimlərini ədə etdikləri uğur münasibəti ilə təbrik edərək, onlara gələcək fəaliyyətlərində nailiyyətlər arzulayıblar.

Sonra ALPLogo proqramlaşdırma olimpiadasının və SketchUp müsabiqəsinin qalibləri elan edilib. ALPLogo proqramlaşdırma olimpiadasının nəticələrinə əsasən, 8 nəfər I, 12 nəfər II, 14 nəfər III və 7 nəfər IV yerlərə layiq görülüb.

SketchUp müsabiqəsində isə 2 nəfər I, 3 nəfər II, 4 nəfər III və 7 nəfər IV yerləri tutub. Qalib şagirdlərə mükafatlar təqdim edilib. Bu yarışların təşkilində fəal iştirak edən və şagirdləri qalib olan informatika müəllimlərinə sertifikatlar verilib.

Məlumat üçün bildirək ki, ALPLogo komandalar sistemi Azərbaycan dilində olan ilk proqramlaşdırma mühitidir.

LOGO proqramlaşdırma dili dünyanın bir çox dilləri üçün lokallaşdırılmışdır. Bu dil vasitəsilə kiçikyaşlı məktəblilər proqramlaşdırma konsepsiyasının əsaslarını öyrənir, onlarda düşüncə və məsələ həlli vərdişləri inkişaf etdirilir. LOGO mühiti uşaq personajına çevrilmiş bağanın hərəkətlərinin proqramlaşdırılmasına əsaslanır. Bağa hərəkət etdikcə iz qoyur və nəticədə rəngarəng görüntülər alınır.

ALPLogo adlanan Azərbaycan versiyası 2012-ci ildə ümumtəhsil məktəbləri üçün “İnformatika” dərsliklərinin müəllifləri Ramin Mahmudzadə, İsmayıl Sadıqov, Naidə İsayeva və proqramçı Cəmşid Naxçıvanskidən ibarət qrup tərəfindən “Bakı” nəşriyyatında işlənib hazırlanmış və bugünədək respublika məktəblərində böyük uğurla istifadə olunmaqdadır. Proqram mühiti V, VI və VII sinif “İnformatika” dərsliklərinə daxil edilmiş və respublika məktəblərinə ödənişsiz yayılması təmin olunmuşdur. Proqramın başlıca özəlliyi komandaların Azərbaycan, ingilis və rus dillərində yazıla bilməsindədir. Azərbaycan və rus bölmələrində dərs zamanı müəllimlərin hər hansı dildə yazılmış hazır kodlardan asanca istifadə etmələri üçün proqramda interfeys dilinin dəyişdirilməsi ilə yanaşı, kodun bir dildən başqa dilə avtomatik çevrilməsi imkanı da vardır. ALPLogo proqramlaşdırma olimpiadasına ümumtəhsil məktəblərinin V-VII sinif şagirdləri qatılırlar.

SketchUp proqramı isə obyektlərin üçölçülü modellərini yaratmaq üçün nəzərdə tutulan müasir proqramlardandır.

Autodesk Maya, 3D Max, AutoCAD kimi mükəmməl və mürəkkəb proqramlarda işləmək üçün SketchUp proqramı çox uğurlu başlanğıcdır. Bu proqramda iş vərdişlərinin formalaşdırılması informatikanın riyaziyyat, təsviri incəsənət, texnologiya fənləri ilə inteqrasiyasını təmin edir. “İnformatika” fənninin əsas məzmun xətlərindən birinin modelləşdirmə olduğunu nəzərə alaraq, SketchUp proqramı ilə bağlı mövzular 2011-ci ildə VII sinif “İnformatika” dərsliyinə daxil edilmişdir. Hazırda isə yeni kurikuluma uyğun olaraq, bu proqram VIII sinifdə öyrədilir. “Ən yaxşı üçölçülü model” müsabiqəsinə qatılan VII-X sinif şagirdləri də məhz bir sıra obyektlərin üçölçülü modellərini hazırlayıblar.

**Samirə KƏRİMOVA**

### 5-6-cı sinif şagirdləri arasında keçirilən ALPLogo-2023 proqramlaşdırma olimpiadasının nəticələri

**I yer**

Əli Nəbiyev - Bakı şəhəri 261 nomrəli məktəb-lisey
Cavid Göyüşlü - Şuşa şəhəri 1 nömrəli tam orta məktəb
Emin Məmmədzadə - Balakən şəhəri 3 nömrəli tam orta məktəb
Leyla Qebedova - Balakən şəhəri 1 nömrəli tam orta məktəb
Səlim Saxrayev - Balakən rayonu Qazbinə kənd tam orta məktəbi
Onur Mehdili - Sumqayıt şəhəri 38 nömrəli tam orta məktəb
Rəsul Nağı - Balakən rayonu Qazbinə kənd tam orta məktəbi

**II yer**

Nihad Ağayev - İsmayıllı şəhəri 6 nömrəli tam orta məktəb
Əminə Ramazanlı - Bakı şəhəri “İdrak” liseyi
Kənan Cəbili - Bakı şəhəri 287 nömrəli tam orta məktəb
Süleyman Mürşüdov - Balakən rayonu Qazbinə kənd tam orta məktəbi
Amin Lətifli - Bakı şəhəri 283 nömrəli tam orta məktəb
Azad Kərimli - İsmayıllı şəhəri 6 nömrəli tam orta məktəb
Nihad Ramazanov - Quba rayonu Qırmızı Qəsəbə 1 nömrəli tam orta məktəb
Səttar Cabbarlı - Sumqayıt şəhəri Təbiət Elmləri Təmayüllü Gimnaziya
Türkel Zeynallı - Şamaxı rayonu Qızmeydan kənd orta məktəbi

**III yer**

Lalə Surxayeva - Balakən şəhəri 1 nömrəli tam orta məktəb
İsmayıl Balakişiyev - İsmayıllı şəhəri 6 nömrəli tam orta məktəb
Kərim Kərimli - Bakı şəhəri 261 nomrəli məktəb-lisey
Leyla Əlizadə - Şirvan şəhəri 1 nömrəli tam orta məktəb
Kamilə Əhməyeva - Balakən şəhəri 1 nömrəli tam orta məktəb
Lalə Sadıqova - Quba rayonu Zərdabi qəsəbə tam orta məktəbi
Sabir Hüseynov - Balakən şəhəri 1 nömrəli tam orta məktəb
Xəlil Xudayev - Şirvan şəhəri 1 nömrəli tam orta məktəb
Saleh Mürşüdlü - Balakən rayonu Qazbinə kənd tam orta məktəbi
Nazlı Zərbiyeva - İsmayıllı şəhəri 3 nömrəli məktəb-lisey

### 7-ci sinif şagirdləri arasında keçirilən ALPLogo-2023 proqramlaşdırma olimpiadasının nəticələri

**I yer**

Zəhra Niyazlı - Sumqayıt şəhəri 38 nömrəli tam orta məktəb

**II yer**

Mərd Rəsulov - Bakı şəhəri Elitar Gimnaziya
Sahib İsgəndərli - Bakı şəhəri 295 nömrəli tam orta məktəb
Aydan Rəşidli - Bakı şəhəri 274 nömrəli tam orta məktəb

**III yer**

İnci İsmayılzadə - Bakı şəhəri 261 nömrəli məktəb-lisey
Abdullah Əliyev - Bakı şəhəri 267 nömrəli məktəb-lisey
Rəhim İlyasov - Gəncə şəhəri 6 nömrəli tam orta məktəb
Ədalət Hüseynli - İsmayıllı şəhəri 5 nömrəli tam orta məktəb

### 7-10 sinif şagirdləri arasında keçirilən “Ən yaxşı üçölçülü model” müsabiqəsinin nəticələri

**I yer**

Xədicə Məmmədzadə- Xırdalan şəhəri 2 nömrəli tam orta məktəb
Jalə Məmliyeva- Bakı şəhəri 182 nömrəli tam orta məktəb

**II yer**

Rakif Ağayev- Xızı rayonu Şorabad qəsəbə tam orta məktəbi
Ramil Aslanov - Şamaxı rayonu Qızmeydan kənd tam orta məktəbi
Elvin Ağakərimov - Quba rayonu Alekseyevka kənd tam orta məktəbi

**III yer**

Nicat Həsənov - İsmayıllı şəhəri 3 nömrəli tam orta məktəb
Amid Musayev - Şirvan şəhəri 16 nömrəli tam orta məktəb
Əli Məmmədov - Bakı şəhəri Kaspi liseyi
Zəhra Lətifli - Şəki şəhəri Fizika-riyaziyyat və humanitar təmayüllü lisey

# Gənclər Vətənimizin hərtərəfli inkişafına töhfə verəcəklər








## Mingəçevir Dövlət Universitetində “Məzun günü” keçirilib

Mingəçevir Dövlət Universitetində (MDU) “Məzun Günü-2023” tədbiri keçirilib. Tədbirdə şəhid ailələrinin üzvləri, Gənclər və İdman Nazirliyinin, Mingəçevir Şəhər İcra Hakimiyyətinin, YAP Mingəçevir şəhər təşkilatının, Mingəçevir şəhər təhsil sektoru və ümumi təhsil müəssisələrinin nümayəndələri, MDU-nun İctimai Nəzarət Şurasının üzvləri, əməkdaşları, tələbələr, magistrantlar və valideynlər iştirak ediblər.

Universitetdən AZƏRTAC-a bildiriblər ki, tədbir iştirakçılarını salamlayan bu ali təhsil ocağının rektoru Şahin Bayramov məzunları, onların valideynlərini və müəllimlərini təbrik edib, belə bir əlamətdar gündə MDU ailəsi üzvləri ilə bir arada olduqlarına görə gənclər və idman nazirinə, Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısına və digər qonaqlara təşəkkürünü bildirib.

Cari ildə bakalavriat səviyyəsi üzrə 549 tələbə, magistratura səviyyəsi üzrə 50 magistrantın universitetdən məzun olduğunu diqqətə çatdıran rektor gənclərin həm yaxşı mütəxəssis, həm də layiqli vətəndaş kimi Vətənimizin hərtərəfli inkişafına əhəmiyyətli töhfələr verəcəklərinə inandığını söyləyib. Hazırda Azərbaycanın müstəqillik tarixinin ən qüdrətli dövrünü yaşadığını qeyd edən Ş.Bayramov ölkəmizin ərazi bütövlüyünün təmin edildiyi, işğaldan azad olunmuş doğma torpaqlarımızın sürətlə dirçəldiyi, bölgədə və dünyada nüfuzumuzun xeyli artdığı bir şəraitdə gənclər üçün daha böyük məsuliyyətin yarandığını və eyni zamanda daha geniş imkanların açıldığını vurğulayıb. “Heydər Əliyev İli”ndə məzun olmağın xüsusi sevinc hissləri doğurduğunu qeyd edən rektor gənclərin gələcək karyeralarında böyük uğurlara imza atacaqlarına əminliyini ifadə edib.

Gənc məzunlara təbriklərini və xoş arzularını çatdıran gənclər və idman naziri Fərid Qayıbov böyük coşqu və bayram əhvali-ruhiyyəsi ilə keçirilən “Məzun günü”ndə iştirakdan məmnunluğunu ifadə edib. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən gənclər siyasətindən bəhs edən nazir bildirib ki, hazırda cəmiyyətin aparıcı qüvvəsini təşkil edən və gələcəyin təminatçısı olan gənclərimizin hərtərəfli inkişafına yüksək diqqət və qayğı göstərilir. 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərdə məhz Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi dövründə yetişən gənclərin mühüm pay sahibi olduğunu qeyd edən F.Qayıbov müasir gəncliyimizin bütün cəbhələrdə, yarışlarda və fəaliyyət sahələrində yüksək hazırlıq səviyyəsinə, mübarizliyə, əzmkarlığa və intellektə sahib olmasının qürurverici olduğunu bildirib. Gənclərin universitetdən sonrakı dönəmdə də müasir dövrün tələblərinə uyğun olaraq bilik və bacarıqlarının davamlı artırılmasının, cəmiyyətə fayda qazandıracaq könüllülük fəaliyyətlərində iştirakının əhəmiyyətini və sağlam həyat tərzinin önəmini vurğulayan nazir məzunlara uğurlar arzulayıb.

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov çıxışında universitet həyatında önəmli hadisələrdən olan “Məzun günü” münasibətilə MDU ailəsi üzvlərini təbrik edib. Ulu Öndər Heydər Əliyevin təhsilin inkişafına və yüksəkixtisaslı milli kadrların hazırlanmasına hər zaman yüksək diqqət və qayğı ilə yanaşdığını bildirən İ.İsmayılov hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib. Bildirib ki, dövlətimizin başçısının müvafiq tapşırıqları və dəstəyi sayəsində respublikamızın dördüncü böyük sənaye şəhəri olan Mingəçevirdə təhsilin keyfiyyətinin yüksəldilməsi, əlçatanlığının artırılması və gənclərin hərtərəfli inkişafı üçün bütün imkanlar yaradılıb.

Bildirilib ki, regionun davamlı inkişafına töhfə verməyi əsas strateji hədəflərindən biri olaraq müəyyənləşdirən MDU bu gün çoxşaxəli fəaliyyətləri ilə şəhərin ictimai həyatında özünəməxsus və fəal mövqeyi ilə fərqlənir.

Sonra məzun valideynləri adından çıxış edən şəhid ailəsinin üzvü Aygün Əhmədova övladının timsalında universitet təhsilini başa vuran bütün məzunları təbrik edib, onların bilik və bacarıqlara yiyələnməsində və mütəxəssis kadrlar kimi yetişməsində böyük əməyi olan müəllimlərə təşəkkürünü bildirib.

Açılış nitqlərindən sonra akademik göstəricilərinə və universitetin ictimai həyatında iştirakına görə fərqlənən məzunlar, eləcə də cari tədris ilində bu ali təhsil müəssisəsinin müasirləşməsi və inkişafında fəallıq göstərən bir qrup əməkdaş, xarici ölkələrdən olan qonaq alim və mütəxəssislər Fəxri fərmanlarla təltif edilib və xatirə şəkilləri çəkdirilib.

Rəsmi hissədən sonra tədbir bədii və əyləncəli proqramla davam edib. MDU-nun məzun tələbə və magistrantlarının təqdimatında müxtəlif mahnılar və rəqslər ifa olunub.

“Məzun günü” atəşfəşanlıqla başa çatıb.

---

Məşhur milyarder Bill Qeyts heç vaxt bakalavr dərəcəsi almayıb. “Microsoft”-un əsasını qoymaq üçün tələbəsi olduğu Harvard Universitetini üç semestrdən sonra tərk edib. “Universiteti yarımçıq tərk edən bir şəxs buraxılış günü haqqında nə bilir? Düzünü desəm, şəxsən mənim bu günlə bağlı təcrübəm çox azdır. Bu günə hazırlaşarkən mən çox düşündüm ki, siz yeni məzunlar olaraq universitetdə əldə etdikləriniz təhsil sayəsində dünyaya necə təsir göstərə bilərsiniz. Bu, məni belə bir gündə almadığım məsləhətlər barədə düşünməyə məcbur etdi...”. B.Qeyts Şimali Arizona Universiteti tələbələrinin “Məzun Günü”ndə belə deyib.



# Bill Qeyts “Məzun Günü”ndə gənclərə nələri tövsiyə etdi?

**“Sizin həyatınız bir səhnəli pyes deyil”**

B.Qeyts əgər ali məktəbi bitirmiş olsaydı, “Məzun günü” eşitmək istədiyi 5 tövsiyəni Arizona Universitetinin məzunları ilə bölüşüb: “Yəqin ki, indi siz karyeranızla bağlı düzgün qərarlar vermək üçün böyük təzyiqlə üzləşirsiniz. Mən də tələbə ikən eyni təzyiqlə mübarizə aparmışam. 1975-ci ildə “Microsoft”-un həmtəsisçisi olanda düşünürdüm ki, ömrünün sonuna qədər orada işləyəcəyəm”.

O, bu məsələdə səhv etdiyinə görə özünü “xoşbəxt” hiss etdiyini vurğulayıb.

B.Qeyts uzun müddət “Microsoft”-da işləyib. 2000-ci ilə qədər şirkətin baş direktoru və 2014-cü ilə qədər Direktorlar Şurasının üzvü olub.

“Bu gün hələ də proqram təminatı üzərində işləyirəm, amma xeyriyyəçilik mənim daha çox bağlandığım işimdir” - deyən milyarder keçmiş həyat yoldaşı Melinda French Qeyts ilə birlikdə qurduğu “Bill və Melinda Qeyts Fondu”ndakı işinə istinadən söyləyib.

Ona aid internet səhifəsindəki məlumata görə, 2000-ci ildən fond iqlim dəyişikliyi, gender bərabərliyi və səhiyyə kimi qlobal problemlərə xüsusi diqqət yetirərək bu istiqamətlərə qrant şəklində 65,6 milyard dollar vəsait ayırıb.

B.Qeyts məzunlara müraciətində bildirib ki, hədəfləriniz təsəvvür etdiyiniz şeylərlə üst-üstə düşməsə də, özünüzü və məqsədlərinizi həddən artıq qiymətləndirmək yaxşıdır:”Sabah və ya növbəti on il ərzində etdikləriniz əbədi olaraq etdiyiniz işlər olmamalıdır”.

**“Siz heç də hər vaxt çox ağıllı olmursunuz”**

Hətta çoxtrilyonlu şirkətin həmtəsisçisi də hər gün yeni bir şey öyrənəcək. B.Qeyts kolleci tərk edəndə hər şeyi bildiyini düşünürdü. Nəhayət, o başa düşüb ki, “yeni bir şey öyrənmək üçün ilk addım bilmədiyiniz şeylərə söykənmək, bildiklərinizə diqqət yetirməkdir”.

B.Qeyts tələbələrə də bunu etməyi məsləhət görüb: “Karyeranızın bir anında özünüz həll edə bilməyəcəyiniz bir problemlə üzləşəcəksiniz. Bu, baş verəndə çaxnaşmaya düşməyin, rahat nəfəs alın. Özünüzü düşünməyə məcbur edin. Sonra da öyrənə biləcəyiniz ağıllı insanları tapmağa çalışın”.

Bu ağıllı insanları iş yerində, peşəkar şəbəkələrin saytlarında və ya həmkarlarınızın arasında tapa bilərsiniz. Onun məsləhəti: “İnsanlar sizə kömək etmək istəyirlər. Əsas odur ki, soruşmaqdan qorxmayın”.

**“Problemi həll edən işə can atın”**

B.Qeyts 2022-ci ildə ən böyük tanınmış xeyriyyə ianəsinə görə daha da məşhurlaşıb. Xeyriyyəçilik sahəsində işləri dəstəkləmək üçün “Qeyts Fondu”na öz sərvətindən 5 milyard dollar bağışlayıb. Təəccüblü deyil ki, o, tələbələri başqalarına kömək etmək üçün imkanlardan istifadə etməyə təşviq edib: “Siz ali məktəbi insanlara kömək etmək üçün böyük fürsət zamanı bitirirsiniz. Hər gün yeni sahələr və şirkətlər meydana çıxır ki, bu da dünyanı yaxşılığa doğru dəyişərək pul qazanmağınıza imkan verir. Elm və texnologiyadakı nailiyyətlər isə əvvəllər olduğu kimi böyük nəticələr əldə etməyi asanlaşdırıb”.

B.Qeytsin sözlərinə görə, imkanlar hüdudsuzdur: “Tələbələr iqlim dəyişikliyi ilə meşəçi kimi mübarizə apara bilərlər və ya insanlara proqramçı kimi süni intellektdən faydalanmağa kömək edə bilərlər.

Günlərinizi böyük bir problemin həllinə sərf etdiyiniz zaman, işinizi ən yaxşı şəkildə yerinə yetirmək sizə enerji verir. Bu, sizi daha yaradıcı edir və həyatınıza daha güclü bir məqsəd hissi qatır”.

**“Dostluğun gücünü qiymətləndirməkdən çəkinməyin”**

B.Qeyts tələbəlik dövründə onu ən çox təəssüfləndirən bir məsələ barədə sonralar 2018-ci ildə Harvard tələbələrinə deyib: “Tələbəlik dövründə kifayət qədər ünsiyyət yoxdur. Mən vaxtımın çoxunu auditoriyalarda tədrisə ayırırdım, ətrafımdakılarla dostluq münasibətləri qurmağa isə az vaxt sərf edir, və ya az yer ayırırdım”.

B.Qeyts Arizona Universitet məzunlarına ali məktəbdə qurduqları əlaqələri dəyərləndirməyi davam etmələrini məsləhət görüb:”Söhbət etdiyiniz və mühazirələrdə yan-yana oturduğunuz insanlar yalnız tələbə yoldaşlarınız deyil. Onlar sizin şəbəkənizdir, gələcək həmtəsisçiləriniz və həmkarlarınızdır. Ən yaxşı dəstək, məlumat və məsləhət mənbələrinizdir. Bu gün səhnəyə çıxdığınızda ən dəyərli olan yeganə amil səhnəyə kiminlə çıxmağınızdır”.

B.Qeytsin ən köhnə dostlarından bəziləri onun həyatında həlledici rol oynayıblar. “Məktəbdə oxuyanda elmi fantastika romanları və kompüter jurnalları kimi bir çox maraqlarımı bölüşən başqa bir şagirdlə dost oldum. Bu dostluğun nə qədər vacib olduğunu bilmirdim. Dostumun adı Paul Allen idi və biz birlikdə “Microsoft”u yaratdıq. Onun kollec dostlarından biri olan Stiv Balmer “Microsoft”un baş direktoru vəzifəsində onun varisi oldu”.

B.Qeyts hətta ən yaxşı məsləhətin dostluqla bağlı olduğunu söyləyib. O. karyerasının başlanğıcından ən yaxşı məsləhətləri köhnə dostu və milyarder həmkarı Uorren Baffetdən alıb.

“Sonda dostlarınızın həqiqətən sizin haqqınızda necə düşündükləri və bu dostluğun onlar üçün nə qədər güclü olduğunu düşünmələri də əhəmiyyətlidir”- deyə B.Qeyts dostu U.Baffetin bu sözlərini məzunlara xatırladıb.

**“Bir az istirahət et...sən buna layiqsən”**

“Çox çalışmaq əməkhaqqının artmasına və ya karyera yüksəlişinə səbəb ola bilər, ancaq bunu həyatınızın hesabına etməməlisiniz”. B.Qeyts bu dərsi çox gec öyrəndiyini bildirib: “Sizin yaşınızda olanda tətillərə inanmırdım. Həftəsonu nə olduğunu bilmirdim. Ətrafımdakı hər kəsi çox uzun saatlar işləməyə məcbur etdim. “Microsoft”un ilk günlərində ofisim dayanacağa baxırdı və mən kimin tez çıxıb, kimin gec getdiyini izləyirdim…

Ancaq yaşlandıqca və xüsusən də ata olandan sonra anladım ki, həyatda işləməkdən daha çox şey var. Bu dərsi öyrənmək üçün mənim gözlədiyim qədər gözləməyin. Münasibətlərinizi inkişaf etdirmək, uğurlarınızı qeyd etmək və itkilərinizi bərpa etmək üçün vaxt ayırın. Lazım olduqda fasilə verin. Ətrafınızdakı insanlarla da ehtiyac duyduqları zaman onlarla rahat davranın”.

B.Qeyts daha sonra əlavə edib: “2023-cü il, gələcək sizə aiddir. İnanıram ki, siz iqlim böhranını həll edəcək və varlı ilə yoxsul arasındakı uçurumu azaldacaqsınız. Siz həqiqətən görünməmiş vaxtlarda universitet təhsili alaraq tarix yazmısınız. Şübhə etmirəm ki, siz ömrünüz boyu tarix yazmağa davam edəcəksiniz. Mən sizin dünyada tərəqqiyə necə təkan verəcəyinizi görmək üçün səbirsizlənirəm. Bu əlamətdar mərhələyə çatmağınız münasibətilə sizi təbrik edirəm”.

**Oruc MUSTAFAYEV**

## 2023 – "Heydər Əliyev İli"

**"Mən inanıram ki, başladığım işi İlham Əliyev sona çatdıracaq"**

**"Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!"**



# Xalqımıza Milli Qurtuluş Günü bəxş edən şəxsiyyət



**Mahirə HÜSEYNOVA,**
*ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor*

71 il müddətində "beynəlmiləlçi sosialist ittifaqı"nın tərkibində məhz həmin ittifaqın ideoloji əsaslarını yaradan, sosializmin dünyanın hansısa nöqtəsində yaşıl ada kimi qalmayacağına inanan Vladimir Ulyanovun-Leninin vaxtilə Çar Rusiyası haqqında dediyi "xalqlar həbsxanası"ndan azad olan digər 15 müttəfiq respublikalardan biri kimi dövlət müstəqilliyini elan edən Azərbaycan da "uğur başgicəllənməsi" sindromundan azad ola bilmədi. Cəmiyyətdə bu sindroma, hətta, 1988-ci ildən Azərbaycana qarşı ərazi iddialarını nəinki ortaya qoyan, habelə həmin iddiaları qan axıtmaq hesabına reallaşdırmaqda israrlı olduğunu nümayişkaranə ortaya qoyan Ermənistanın hədələri belə, təsirsiz görünürdü.

Sözsüz ki, həmin dövrün ən populyar sovetoloqları bu gerçəkliyin inkarolunmaz fakta çevrilməsini zəngin və rəngarəng tarix yaşamış xalqların uzun sürən fasilələrlə öz milli dövlətçilik ənənələrindən "uzaq salınması" sindromu ilə izah etməyə çalışırdılar. Sosial psixologiyada hansısa nəzəriyyə bəlkə də bu ideya müəlliflərinin qənaətinə haqq verə bilərdi, lakin həmin 15 müttəfiq respublikada dövlət müstəqilliyinin elan olunmasından sonra yaranan müxtəlif mənzərələrin yaratdığı gerçəkliklər başqa həqiqətləri ortaya çıxardı. O həqiqətlər isə nəinki sosial psixologiyanın haqqında xatırlatdığımız tezislərini kənara qoyur, üstəlik, fəlsəfənin dəmir məntiqinin təkzibolunmaz arqumentləri ilə yanaşmaları qaçılmaz edir.

Bu, tarix və şəxsiyyət tandeminin diktə etdiyi, tarixi min illərlə ölçülən və böyük ehtimalla insanlığın ömrü qədər davam edəcək polemikaların nəticəsini müəyyənləşdirir. Yeri gəlmişkən, bununla bağlı görkəmli qazax şair və yazıçısı, ictimai xadimi, dünyaca məşhur müəlliflər, nəşrindən sonra sosioloqların ciddi marağına səbəb olan "Dünyanı dəyişdirəcək 22 fikir. Görkəmli mütəfəkkirlərlə söhbətlər"in həmmüəllifləri Piotr Dutkieviç və Riçard Sakvanın kitabında əksini tapmış 22 görkəmli mütəfəkkir arasında olan Oljas Süleymenovun fikrini yada salmaq istərdik. Keçmiş SSRİ-də qlobal dünyada gedən ictimai-siyasi proseslərin, özündə ideoloji əksiliklərin mübarizəsini əks etdirən nəticələrin diktə etdiyi situasiyada azad olunmuş xalqlar və ölkələri nəzərdə tutan Süleymenov Azərbaycan xalqının Ümummilli Lideri, adını dünyanın azman siyasətçiləri sırasına həkk etdirmiş Heydər Əliyevə müraciətlə yazırdı: "Çox vacibdir ki, müstəqilliyin təşəkkül tapdığı məhz bu çətin dövrdə xalqlara Sizin kimi yüksək dərəcəli peşəkarlar, bərkdən-boşdan çıxmış insanlar rəhbərlik etsinlər. Çünki belə imkan xalqlara min ildə bəlkə də bir dəfə verilir və onu əldən buraxmaq olmaz. Ondan elə istifadə etmək lazımdır ki, xalq bu dövrdən möhkəmlənmiş halda çıxsın və onun sonrakı nəsilləri irsən müstəqil, sözün əsl mənasında azad və məşhur insanlar olsunlar. Heydər Əliyev, Sizin kimi rəhbərlərin xidməti məhz bundan ibarətdir".

Daha sonra qazax xalqının görkəmli nümayəndəsi Ulu Öndərə müraciətində dağılmış Sovet İttifaqı, ABŞ-ın tarixində seçilən prezidentlərdən biri kimi qalacaq Ronald Reyqanın "Şər İmperiyası" adlandırdığı xalqlar həbsxanasından xilas olmuş çoxmilyonlu xalqları nəzərdə tutaraq qeyd edirdi: "SSRİ-nin "yenidənqurma eşqinə düşən" rəhbərliyi peşəkarları vəzifədən uzaqlaşdıraraq, yeni dövlətlərin müqəddəratını naşıların və kütlənin öhdəsinə buraxmaqla xalqları separatçılıq, vətəndaş müharibələri və etnik təmizləmələr faciəsinə düçar etdilər. Tacikistan, Özbəkistan, Qırğızıstan, Moldaviya, Gürcüstan, Azərbaycan, Çeçenistan... Yüz minlərlə insan öldürüldü, milyonlarla adam vətənindən didərgin salındı" *(https://files.preslib.az/projects/heydaraliyev/meshurlar.pdf -səh.13)*.

Bu, Azərbaycanda yaşamasa da, keçmiş SSRİ-nin parçalanması nəticəsində "imperiyanın ucqarlarında" yaranmış situasiya kontekstində bu coğrafiyada, xüsusilə, 1918-ci ildə 23 aylıq müddət olsa belə, əsrlərlə öz dövlətçiliyindən ayrılan, xalqımızın yaddaşından heç bir gücün silə bilməyəcəyi milli dövlətçiliyinə qovuşmaq ərəfəsində olan Azərbaycanda yaranan mənzərə barədə ən dolğun qiymətdir. Hesab edirik ki, o hadisələri və onunla bağlı gəlinən ümumi qənaətləri vaxtaşırı ölkəmizin ancaq bu günü ilə bağlı deyil, gələcəyinin təminatı olan bügünkü gəncliyə xatırlatmaq cəmiyyətimizin hər bir üzvünün, o cümlədən, ziyalılarımızın əsas vəzifələrindən biridir. Söhbət, 1993-cü ilin iyununda dövlət müstəqilliyinə qovuşmasından 17 ay keçməmiş ölkəmizdə yaranan taleyüklü ictimai-siyasi böhran şəraitində və Azərbaycan xalqının ardıcıl, təkidli tələbləriylə o zamankı siyasi hakimiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əlirza oğlu Əliyevi Bakıya dəvət etməsindən gedir. 46 yaşında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə yüksələn Ümummilli Lider 1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışmış, 1987-ci ildə o zamankı SSRİ rəhbəri, avantürist "islahatları" ilə tarixdə qalan Mixail Qorbaçovun siyasi xətti ilə razılaşmaması səbəbindən partiya və hökumət postlarından istefa verdi. 1990-cı ildə sovet qoşun hissələrinin Bakıya yeridilməsi ilə Azərbaycan xalqına qarşı tutulan divana etiraz əlaməti olaraq kommunist partiyası sıralarından çıxan Heydər Əliyev doğulduğu Naxçıvana getdi, blokada şəraitində olan diyardakı insanlar üçün ümid çırağına çevrildi. 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində Ulu Öndərimiz fədakarlıq nümunələri göstərdi. İndi isə ölüm, ya olum sualı qarşısında dayanan, Ermənistan tərəfin elan etmədən başlayaraq davam etdirdiyi müharibə ilə təkbətək qalmış, vətəndaş müharibəsinin astanasında dayanan Azərbaycanın taleyi böyük siyasətçi, müdrik dövlət adamının verəcəyi qərardan asılı idi. Ümummilli Liderimiz doğma xalqının taleyinə biganə qala bilməzdi və bilmədi, 1993-cü il iyun ayının 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi.

Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil olan o günün əsası tarixi Qayıdışla dövlətçilik tariximizin təqviminə beləcə düşdü.

O faktı vurğulamağı lazım bilirik ki, tariximizə əlamətdar gün kimi yazılan 15 iyun tarixi barədə kifayət qədər yazılmasına və qarşıdakı illərdə də bu mövzunun aktuallığını saxlayacağını qeyd etməklə, Ümummilli Liderin bu çağırışı qəbul edərək siyasi hakimiyyətə qayıdışına taleyüklü qərar kimi yanaşmaq mümkündür. Xalqımız və dövlətimiz üçün həlledici məqamda, silahlı müxalifətin öz istəyini diktə etdiyi, o zamankı ölkə rəhbərliyinin baş verən hadisələrə təsir imkanlarının minimal səviyyədə olduğu, bir-neçə ay əvvəl Ermənistan silahlı qüvvələrinin Kəlbəcəri işğalından sonra, digər rayonlarımızın "hökm saatını gözlədiyi" vaxtda dünyamiqyaslı siyasətçinin qəbul etdiyi qərarı ancaq və ancaq Ümummilli Liderimizin öz xalqına, Vətəninə hüdudsuz sevgisi ilə izah etmək olar. Yeri gəlmişkən, o sevgini əslən bakılı olan, uzun onilliklər boyu SSRİ Dövlət Plan Komitəsinin sədri vəzifəsində işləmiş, birgə iş fəaliyyəti müddətində Ulu Öndəri yaxından tanıyan, müdrik yaşlarında Rusiya - Azərbaycan Dostluq Cəmiyyətinin sədri kimi çalışmış Nikolay Baybakov belə xatırlayırdı: "Mən, Azərbaycanı və Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram" *(https://files.preslib.az/projects/heydaraliyev/meshurlar.pdf - səh.2)*.

O sevginin miqyasını, dərinliyini Azərbaycan xalqı ancaq öz həyatında deyil, taleyinin gələcəyi üçün qurulan təməllərdə görürdü. Bu, daha çox o vaxtlar aşkar görünürdü ki, Ümummilli Lider siyasi hakimiyyətinin ilk günlərində Azərbaycanı əbədi olaraq dünyanın siyasi xəritəsindən silmək istəyən qüvvələrin addım-addım yaxınlaşdığı məqamlarda- Azərbaycanda yeni separatizm ocaqları yaratmaq cəhdlərinə, hələ formalaşma mərhələsində olan Milli Ordunu siyasi mübarizədə alət rolunda görmək istəklərinə qarşı hansı cavab tədbirləri görülür. Bu, həmin məqamlarda Azərbaycanda səhnələşdirilərək sonacan, bütöv bir millətin gələcək arzularını dəfn etməyi hədəf seçən tragik məqamlarla dolu oynanılan tamaşalarda o qədər aydın görünürdü ki... Belə məqamları olduğu kimi görən və yaxud, tutduğu dünyamiqyaslı məqama görə görməli olan Amerika Birləşmiş Ştatları prezidentinin müşaviri, məşhur politoloq və siyasi xadim Zbiqnev Bjezinski illər keçəndən sonra müasir Azərbaycan Respublikasının qurucusu Heydər Əliyevi bu cür xarakterizə edəcək: "Sovet İttifaqı dövründə Heydər Əliyevlə görüşməmişdim, amma, əlbəttə, onun haqqında eşitmişdim. Mən, xüsusilə, Ağ evdə çalışarkən sovet sistemi ilə maraqlanırdım və sovet liderləri ilə əlaqələrim var idi. Bilirdim ki, Heydər Əliyev aparıcı rəhbərlərdən biridir və onun adı hansısa məqamda hətta partiyanın baş katibi vəzifəsi üçün hallandırılırdı. Mən bilirdim ki, onun geniş siyasi təcrübəsi var. Bu, mənim üçün çox əhəmiyyətli barometrdir. Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət - bir sözlə, şəksiz liderdir. Heydər Əliyev Azərbaycanın beynəlxalq miqyasda mövqeyinin möhkəmləndirilməsi üçün, şübhəsiz, çox müsbət işlər görmüşdür" *(https://files.preslib.az/projects/heydaraliyev/ meshurlar.pdf - səh.6)*.

Əlbəttə, verilən sitatlar qətiyyən Ümummilli Liderin miqyasını qabartmaq üçün deyil, azından, Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlişinin ilk vaxtlarından "Mən ömrümün bundan sonrakı hissəsini də Azərbaycan xalqına həsr etmək üçün gəlmişəm"- deyən Ulu Öndərin həyat fəlsəfəsinə bələd olan insanlarımız özü o ömrün miqyasını bilir. Onlar onu da bilirlər ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə başladığı müharibədə 1994-cü ilin may ayından mövcud situasiyanın yaratdığı status kvodan bəhrələnmək iddiasında olan işğalçı dövlət və erməni diasporu dünyanın güc mərkəzləri hesab olunan aparıcı dövlətlərində Azərbaycanı təslimçi sülhə razı salmaq üçün dəridən-qabıqdan çıxırdı. Həmin dövlətlərin birgə paradına isə bu gün də Azərbaycana qarşı münasibətini hər məqamda ortaya qoyan Fransa rəhbərlik edirdi. Belə bir məqamda, 1996-cı ildə Portuqaliyanın Lissabon şəhərində ATƏT üzvü dövlətlərin Zirvə Toplantısında həmin dövlətlər Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevdən ilk sarsıdıcı zərbəni aldı. Məhz Lissabon Sammitində Prezident Heydər Əliyevin etdiyi çıxışı xatırlayan, dəmir məntiqin diqtə etdiyi həqiqətləri unuda bilməyən Amerika Birləşmiş Ştatlarının prezidenti oğul Corc Buş sonradan belə deyəcək: "Dünyada tanınmış görkəmli dövlət xadimi Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm *(https://files.preslib.az/projects/heydaraliyev/meshurlar.pdf - səh. 7)*

Ümummilli Liderin xalqına və Vətəninə sevgisini ancaq dövlət xadimləri və siyasətçilər deyil, ədəbiyyat və mədəniyyət xadimləri də duyur, görür, dilə gətirirdilər. Onlardan biri, dünyaca məşhur musiqiçi və ictimai xadim Mstislav Rostropoviç böyük dövlət adamı, siyasi xadim, həmkarlarının yüksək dəyər verdiyi Heydər Əliyevin bu keyfiyyətlərini ilkin görərək ifadə edən şəxslərdən biri olub. Yeri gəlmişkən, bu, həmin Rostropoviçdir ki, Sovet ideologiyasının ən təhlükəli illərində belə sərhədsiz, siyasi təsir və təzyiqlərdən azad, sərbəst fikir azadlığını özündə ehtiva edən şəxsiyyət kimi özünü hələ 1948-ci ildə Moskva konservatoriyasında təhsil aldığı, Stalin tabularının ən sərt şəkildə ifadə olunduğu vaxtlarda göstərir. O, 1970-ci ildə çəkinmədən Sovet ideologiyasının təqiblərinə məruz qalmış yazıçı, sonradan ədəbiyyat üzrə Nobel mükafatçısı Aleksandr Soljenitsına öz evində sığınacaq verir. Mədəni dünyanın birmənalı olaraq hörmət və ehtiramına layiq Rostropoviç Ümummilli Liderimizə üz tutaraq deyirdi: "Sizə çox sağ olun deyirəm ki, olduqca böyük bir iş görmüsünüz - xalqı öz ölkəsinin sahibi etmisiniz, bütövlükdə ölkədə böyük dəyişikliklər edib, onun nüfuzunu yüksəltmisiniz. Bunun misli yoxdur. Siz böyük insansınız. Elə bir insan ki, müharibəni dayandırmışdır, bu torpaqda sülhü, əmin-amanlığı qoruyub saxlaya bilmişdir" *(https://files.preslib.az/projects/heydaraliyev/meshurlar.pdf - səh. 10)*.

Ümummilli Liderin bu keyfiyyətləri ilə bərabər, xarakter bütövlüyü və ardıcıllığı imkan verirdi ki, Azərbaycanı sevən insanlar siyasi qeyri-stabillikdən bəhrələnərək, ona hər cür hərbi, o cümlədən informasiya dəstəyi göstərən himayədarlarının yardımı ilə işğal zonasını genişləndirən Ermənistanın gec, yaxud tez diz çökəcəyinə əminliyini bildirirdi. Heydər Əliyevin qətiyyətinə inanan belə insanlardan birinin, Türk Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Doğan Gürəşin 90-cı illərin axırlarında dediyi sözlər bu baxımdan ibrətamizdir: "Türk milləti tarix boyunca zaman-zaman böyük sərkərdələrini meydana çıxarmışdır. Heydər Əlirzaoğlu da o böyük sərkərdələrdən biridir. Mustafa Kamal Paşa Türkiyəni düşdüyü girdabdan çıxardığı kimi Heydər Paşa da Azərbaycanı bu bəladan qurtaracaqdır" *(https://files.preslib.az/projects/heydaraliyev/meshurlar.pdf - səh. 2)*.

İbrətamizdir, deyilmi, böyük şəxsiyyətin, dahi siyasətçinin və strategin üzə çıxan keyfiyyətlərinə inamdan doğan bu fikirlər? Buna gedib çıxacağı yolun sonuna inanan dövlət xadiminin qətiyyətinin yaratdığı birmənalı qənaət demək mümkündür.

O qətiyyəti 2003-cü ilin Prezident seçkilərində YAP-ın namizədi Heydər Əliyevin namizədliyini geri götürməsi ilə bağlı seçicilərinə müraciətində açıq-aydın görmək mümkündür. Həmin müraciətində Ümummilli Lider seçicilərini Prezidentliyə namizəd İlham Əliyevə səs verməyə çağırır və çağırışını bu cür əsaslandırırdı: "Mən inanıram ki, başladığım işi İlham Əliyev sona çatdıracaq".

Bu müraciətdən 17 il sonra Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri dünyanı heyrətə salan konkret hərbi əməliyyatlarla zəngin olan 44 günlük müharibədə 30 ilə yaxın müddətdə Azərbaycan Respublikasının Ermənistanın işğalda saxladığı əraziləri azad etməklə, məcburi köçkün həyatı yaşayan soydaşlarımızın Vətən həsrətinə son qoydu. Qarşı tərəfin məğlubiyyəti rəsmən etiraf etməsinə iki gün qalmış ancaq Azərbaycanın deyil, Cənubi Qafqazın incisi sayılan Şuşanın işğaldan azad edildiyi gün Prezident İlham Əliyevin hansı duyğular keçirdiyini isə özü bu cür təqdim edəcək: "Qarabağı azad görmək Heydər Əliyevin və bütün dünya azərbaycanlılarının əsas arzusu idi. Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, "Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!". Ondan sonra Şəhidlər xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı" *(Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə müraciətindən. "Azərbaycan" qəzeti, 11 may 2023-cü il)*.

20 il əvvəl seçicilərinə üz tutan Ümummilli Lider siyasi varisində məhz bu keyfiyyətləri- qətiyyət, analitik düşüncə tərzi və ardıcıllığı əsas gətirərək onları İlham Əliyevə inanmağa, inanaraq səs verməyə çağırırdı. Ulu Öndərin çağırışında ikinci məqam da var, bu məqamı televiziya kanallarından birinə veridiyi müsahibəsində Prezident İlham Əliyev belə ifadə edir: "Mən Heydər Əliyevin oğlu olmağımı özüm üçün böyük xoşbəxtlik sayıram. Böyük insanın oğlu olmaq, habelə mühüm qərarlar qəbul edilən anlarda onun yanında olmaq böyük xoşbəxtlikdir. Bu gün onun işi yaşayır, siyasəti yaşayır və mən əminəm ki, Azərbaycan onun istədiyi kimi inkişaf edir. Əlbəttə ki, mən həmişə ona oxşamağa çalışmışam. Çünki siyasətçi keyfiyyətləri ilə yanaşı, o, həyatda hamıya nümunə ola biləcək adam idi. Səni maraqlandıran bir suala cavab almadan ondan aralanmaq mümkün deyildi" *("Rossiya" telekanalında "Formula vlasti" proqramına müsahibəsindən. 14 fevral 2009-cu il)*.

Bu, böyük şəxsiyyətin həyatının ən məsuliyyətli qərarlarından birini qəbul etdiyi vaxtdan-müasir Azərbaycan tarixinin yeni və şanlı səhifələrinin yazıldığı zamandan ayrıldığımız 30 illik müddətdə ölkəmizin və xalqımızın birgə yaşadığı həyəcanlı, həyəcanla bərabər qürur yaşanan anlarımızın müəyyən faktlarındandır. Onun ən böyük faktı isə budur: 35 il əvvəl, imperiyalardan birinin çöküşü ərəfəsində müstəqillik eşqi ilə çırpınan, siyasət avantürüstlərinin məchul gələcək barədə dediklərinə səmimiyyətlə inanan və göstərilən yolla addımlayan hər bir cəmiyyətin düşə biləcəyi situasiya heç də, həmişə qorxulu nağıllardakı kimi, xoş sonluqla bitmir. Bu, tarixin dəfələrlə təsdiq etdiyi gerçəklikdir: hər bir xalqın yüz iilərlə müddətdə bir dəfə işıqlı yola çıxmaq şansı var. Biz, azərbaycanlılar bu yola 1993-cü ilin 15 iyununda çıxmışıq.

# Azərbaycan təhsilinin HİMAYƏDARI



Xoşbəxt o xalqdır ki, Vətənə sevgisi, xalqa ehtiramı, dövlətə sadiqliyi ilə hər kəsə örnək olan, zəkası, dühası və istedadı ilə dünyada tanınan, bütün ömrünü doğma xalqının xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr etmiş tarixi şəxsiyyətləri var. Bəli, böyük və qədim Azərbaycan xalqı xoşbəxtdir. Bəli, biz-azərbaycanlılar xoşbəxtik... Çünki müasir Azərbaycanımızın qurucusu, Ümummilli Lider Heydər Əliyev kimi dünyaşöhrətli dahi şəxsiyyətimiz vardır. O, ən çətin zamanlarda həm dövlətin, həm də xalqının xilaskarına çevrilməyi bacarmış şəxsiyyətdir. Müasir Azərbaycanın tarixi məhz Ulu Öndərin adı ilə başlayıb... Heydər Əliyev öz ömrünü bütünlüklə Azərbaycan xalqına həsr etdi. Azərbaycanı dünyaya tanıtdı, dünyanı Azərbaycana sığdıra bildi!

Heydər Əliyev çıxışlarında dönə-dönə bildirirdi ki, bir xalqın gələcəyi onun təhsilinin inkişafından asılıdır. Təhsil onun daha böyük diqqətlə yanaşdığı sahə olmuşdur. Bu sahənin inkişafında Ulu Öndərin fəaliyyəti müstəsna əhəmiyyətə malikdir.

“Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır” - deyirdi Ümummilli Lider. Məhz buna görə də hakimiyyətdə olduğu bütün illərdə ilk növbədə təhsil sahəsindəki islahatları prioritet seçdi, təhsilin inkişafı, gəncliyin savadlı, bilikli yetişməsi üçün bütün imkanları yaratdı.

Məsələn, hələ SSRİ dövrünə, yəni Azərbaycan Respublikasına rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərinə nəzər salsaq, 1972-ci ildə “Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında” və 1973-cü ildə “Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında” qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri 765-dən 2117-yə çatdırıldı. Ölkədə 5 yeni ali təhsil müəssisəsi açıldı və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artdı. Heydər Əliyevin səyi sayəsində 1971-ci ildə Azərbaycanda milli zabit hərbi kadrları hazırlayan Cəmşid Naxçıvanski adına hərbi məktəb açıldı. Eləcə də Ulu Öndərin təşəbbüsü və birbaşa himayəsi ilə 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərildi. O dövrdə ümumilikdə SSRİ-nin 170 qabaqcıl ali məktəbinə 15 minə yaxın azərbaycanlı göndərilmişdi. Bütün bunlar sayəsində Azərbaycanın ucqar kənd və qəsəbələrində orta ümumtəhsil məktəbləri açıldı, minlərlə azyaşlı təhsilə cəlb olundu, həmçinin, respublikanın milli kadr potensialının gücləndirilməsinə şərait yaradılmış oldu.

Bütün bu yüksək xidmətlərinə görədir ki, 1983-cü ildə SSRİ-də məktəb islahatına da Nazirlər Soveti sədrinin birinci müavini kimi Ulu Öndər rəhbərlik edirdi.

Elm və təhsilin inkişafı müstəqillik illərində də Ulu Öndərin siyasətinin prioritet məsələləri sırasında idi. Dahi lider bu sahədə mövcud olan problemlərin aradan qaldırılması, dünyanın inkişaf etmiş ölkələrinin təcrübələrinin tətbiqi məqsədi ilə önəmli tədbirlər həyata keçirmiş, mühüm sərəncamlar imzalamışdı. 1998-ci ilin martında imzalanmış “Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında”, 1999-cu ilin iyununda qüvvəyə minən “Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı”, 2002-ci il oktyabrın 4-də imzalanmış “Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında”, 17 fevral 2003-cü il tarixli “Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramının (2003-2007-ci illər) təsdiq edilməsi haqqında” sərəncamlar bu sahədə görülmüş mühüm xidmətlərdən bir qismidir.

İstedadlı gənclərin təhsilə marağını daha da artırmaq və dəstəkləmək üçün Prezident Heydər Əliyevin ali məktəblərə qəbul imtahanlarından ən yüksək bal toplamış abituriyentlərlə şəxsən görüşüb, onlara “Prezident təqaüdü”nün verilməsi barədə qərarı dahi liderin təhsilə, gənclərin inkişafına verdiyi töhfələrdən biridir.

Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Elmlər Akademiyasının da fəaliyyətində canlanma müşahidə olundu. Ulu Öndərin 15 may 2001-ci il tarixli fərmanı ilə Elmlər Akademiyasına Milli Elmlər Akademiyası adı verildi, yeni ixtisaslaşmış institutlar yaradıldı.

“...Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir... Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir”.

Bu sözlər dahi liderin ədəbiyyata, incəsənətə, mədəniyyətə olan xüsusi diqqətinin, sevgisinin bir nümunəsidir. O, bu sevgini hakimiyyətdə olduğu bütün dövrlərdə gördüyü işlərlə daim hiss etdirib.

Hələ SSRİ dövründə məhz Heydər Əliyevin nüfuzu sayəsində XX əsr Azərbaycan ədəbiyyatının klassiklərinə - Süleyman Rəhimova, Rəsul Rzaya, Mirzə İbrahimova, Süleyman Rüstəmə o dövrün ən şərəfli mükafatı - Sosialist Əməyi Qəhrəmanı adı verilmişdi.

Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi sayəsində “Kitabi-Dədə Qorqud”un 1300 illiyi, Məhəmməd Füzulinin 500 illiyi bütün dünyada qeyd olundu. O, bu addımı ilə böyük türk eposunun və böyük Azərbaycan şairinin məhz bu xalqa aid olduğunu bütün dünyaya sübut etdi.

Repressiya qurbanı olmuş böyük şair, dramaturq Hüseyn Cavidin nəşinin Sibirdən Naxçıvana gətirilməsi, Molla Pənah Vaqifin, Hüseyn Cavidin məqbərələrinin tikilməsi, paytaxt Bakıda İmadəddin Nəsimi, Hüseyn Cavid, Nəriman Nərimanov, Cəfər Cabbarlı kimi böyük ədiblərimizə heykəllər qoyulması, ədəbiyyat və mədəniyyət xadimlərimizin ev muzeylərinin açılması, Şuşada “Vaqif Poeziya Günləri” kimi ədəbiyyat bayramının əsasını qoyması Heydər Əliyevin ədəbiyyatımıza qayğı və diqqətinin önəmli nümunəsi idi.

Ulu Öndər müasiri olduğu ədəbiyyat və incəsənət nümayəndələrinə də xüsusi qayğı ilə yanaşmış, onları yüksək dövlət mükafatları ilə təltif etmiş, yubileylərinin təntənəli təşkilinə diqqətlə yanaşmışdır. Onun şair və yazıçılarımızla görüşlərinin lent yazıları bu gün də sevərək izlənir, dahi liderin həm də kövrək və həssas ruhundan xəbər verir.

Bir xalqın var olması, milli-mənəvi dəyərlərinin gələcək nəsillərə aşılamasında dil faktorunun önəmini yaxşı bilən Ulu Öndər azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də önəmli addımlar atmışdır. Öz ana dilini mükəmməl bilən müdrik Prezidentimiz bir natiq kimi hər kəsə örnək idi. 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən Azərbaycan dilinin ana dili kimi qəbul edilməsi də “millətin milliliyini saxlayan onun dilidir” - deyən Heydər Əliyevin cəsarətinin, öz dilinə könüldən bağlılığının nümunəsi idi.

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam oldu. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 29 sentyabr 2022-ci il tarixdə 2023-cü ilin ölkəmizdə “Heydər Əliyev İli” elan edilməsi haqqında sərəncam imzalayıb. Bu sərəncam Heydər Əliyev şəxsiyyətinə, onun tarixi xidmətlərinə yeni dəyərlər əsasında verilən qiymətdir.

Şübhəsiz, Heydər Əliyev dühasının ən böyük əsəri müstəqil və firavan Azərbaycandır! Məhz buna görə də qədirbilən xalqımız dahi liderini hər zaman sonsuz ehtiram və sayğıyla yad edir. “Heydər Əliyev İli”nə ölkədəki bütün dövlət və təhsil müəssisələri öz töhfələrini verirlər. O cümlədən, hər zaman ölkəmizdəki əlamətdar hadisələrə, günlərə operativ şəkildə reaksiya verən, şagirdlərimizin təlim-tərbiyəsində bu əlamətdar günlərin təbliğatının müstəsna rolunu yaxşı dərk edən Bakıdakı R.Əliyev adına 3 nömrəli tam orta məktəb də bir sıra silsilə tədbirləri ilə Ulu Öndəri yad edir, onun yetişməkdə olan gələcək nəsillərə layiqincə tanıdılmasında əlindən gələni edir.

Bir müddət öncə məktəbimizin şagirdlərinin dahi liderin adını daşıyan, özündə onun həyat və fəaliyyətindən izlər saxlayan Heydər Əliyev Mərkəzini ziyarəti həmin addımlardan biridir. Burada şagirdlərimiz müstəqil Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyevi yaxından tanımaq şansı əldə etmiş, onun vətənimiz, millətimiz üçün gördüyü böyük işlərin şahidinə çevrilmişlər.

Həmçinin, məktəbimizin şagirdi Leyla Məlikova Bakı Şəhər İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə “Heydər Əliyev və Azərbaycan tarixi” mövzusunda keçirilən referat yazı müsabiqəsinin qalibi seçilmişdir. İstedadlı şagirdimizin yüksək yerə layiq görülən və “Heydər Əliyev və Azərbaycan tarixi” adlı kitabda çap olunan “27 sentyabr-Anım Günü” adlı inşa yazısının elmi rəhbəri olmaqdan qürur duyuram.

Bəli, bu gün sonsuz qürur və fəxarət hissi ilə haqqında bəhs etdiyimiz, bəxş etdiyi Qarabağ zəfərinin sevincini yaşadığımız Vətən müharibəsi də Heydər Əliyev dühasının başladığı yolun davamı idi. Ulu Öndərin siyasi irsini layiqincə davam etdirən Prezident İlham Əliyev özünün də dediyi kimi, ata vəsiyyətinə əməl edərək 30 illik işğala son qoyub gözəl Qarabağımızı, dilbər Şuşamızı bizə qaytardı.

Ümummilli Liderin təməlini qoyduğu işləri layiqli davamçısı İlham Əliyev daha da genişləndirir və ölkənin sağlam gələcəyi, xalqın rifahı üçün yorulmadan çalışır. Bütün bu işlərin nəticəsi kimi isə təbii ki, günü-gündən inkişaf edən və dünya təhsil sisteminə inteqrasiya edən təhsilimiz də ən gözəl nümunədir.

**Səbinə İMANOVA,**
*Bakıdakı R.Əliyev adına 3 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*

# Müstəqil Azərbaycan dövlətinin BANİSİ

Azərbaycanın müasir tarixinin böyük bir mərhələsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Bu dövr ərzində Ulu Öndər ictimai-siyasi fəaliyyəti ilə xalqın intibahına çalışmış, Vətəninin, dövlətinin mənafeyini daim müdafiə etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci il sentyabrın 29-da 2023-cü ilin ölkəmizdə “Heydər Əliyev İli” elan edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda vurğulandığı kimi, Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir.



**Elnurə KAZIMOVA,**
*Beyləqan rayonu Birinci Şahsevən kənd 1 nömrəli tam orta məktəbin direktoru*

Söhbət təkcə müasir deyil, ümumilikdə Azərbaycan tarixinə adını əbədi həkk edən böyük dövlət xadimi və siyasətçidən - qüdrətli şəxsiyyət Heydər Əliyevdən gedir. Zəngin həyat yolu ilə məhsuldar fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlayan, unikal şəxsiyyətində dərin həyat fəlsəfəsini ehtiva edən Ümummilli Liderin gördüyü müstəsna dərəcədə əhəmiyyətli işlər müasir gəncliyin öyrənməli olduğu irsdir. Bu irsin elmi şəkildə araşdırılması və gəncliyə çatdırılması isə mütəxəssislərin üzərinə düşən mühüm vəzifədir. Gənclərimiz elə məhz təməli Heydər Əliyev tərəfindən qoyulan, sonradan Heydər Əliyevin iradəsi ilə qorunaraq saxlanılan, güclü şəkildə inkişaf etdirilərək Azərbaycan gəncliyinə əmanət verilən azad, müstəqil, suveren Azərbaycan Respublikasında böyüyüb yetişibdir.

Müasir müstəqil Azərbaycan dövlətinin banisi, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin genişmiqyaslı fəaliyyəti özündə müasir tariximizin bütöv bir epoxasını ehtiva edir. 1969-cu ildə onun respublika rəhbəri seçilməsi ilə həyatın ritmi dəyişdi, o vaxtadək bütün sahələrdə hökm sürən durğunluq və ətalət dirçəliş və canlanma ilə əvəzləndi. Ümummilli Lider hələ o zamandan respublikanın xalq təsərrüfatında elmin rolunun artırılmasını, həm fundamental, həm də tətbiqi elm sahələrinin inkişaf etdirilməsini öz fəaliyyətinin başlıca istiqamətlərindən biri elan etmişdi.

Təkcə onu demək kifayətdir ki, 1969-1974-cü illərdə ölkədə 198 elmlər doktoru, 1781 elmlər namizədi müdafiə edib, elmi-tədqiqat institutları, ali məktəblər, elm və təhsil müəssisələri yüksəkixtisaslı peşəkar kadrlarla təmin edilib. Bu illər ərzində ali təhsil müəssisələrinin sayı Azərbaycan Xarici Dillər İnstitutu, İnşaat Mühəndisləri İnstitutu, Naxçıvan Pedaqoji İnstitutu, Xankəndi Pedaqoji İnstitutunun yaradılması ilə genişlənmişdir. Heydər Əliyevin birbaşa təşəbbüsü və qətiyyəti ilə ölkədə yaradılan, gələcək azərbaycanlı hərbi zabitlərin yetişməsində müstəsna rol oynayan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin təşkil edilməsi dahi şəxsiyyətin ölkə həyatının bütün sahələrinə həssaslıqla yanaşmasının nümunəsidir. Ulu Öndərin məqsədyönlü siyasəti və planlı fəaliyyəti sayəsində ölkədə elmin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndi, Azərbaycan elmi SSRİ-də və dünyada kifayət qədər tanıdıldı, tədqiqat işlərinin səviyyəsi yüksəldi, istiqamətləri genişləndirildi, elm və təhsil müəssisələrində çalışan hər kəs hərtərəfli qayğı ilə əhatə edildi.

Ümummilli Lider Heydər Əliyevin xalqımızın çağırışı ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtması isə milli dövlətçiliyimizin çoxəsrlik tarixinə taleyüklü mühüm hadisə kimi daxil oldu. Bundan sonra ölkədə siyasi sabitlik təmin edildi - xaosun qarşısı məharətlə alındı. İctimai-siyasi sabitliyin təmin edilməsi və sistematik səciyyəli kompleks tədbirlərin görülməsi yeni cəmiyyət və dövlət quruculuğu prosesinin başlanmasını mümkün edən strateji faktor oldu. Ulu Öndər Heydər Əliyev tarix baxımından çox qısa bir müddətdə milli dövlətçiliyin sarsılmaz əsaslarını yaratmağa, Azərbaycanın müstəqilliyinin əbədi və dönməz xarakter almasına nail oldu. Bu tarix, eyni zamanda, Azərbaycanın dünya birliyinə qovuşması, dünya dövlətləri tərəfindən tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir.

Bütövlükdə, öz fəaliyyətini Azərbaycanın hərtərəfli inkişafına həsr edən Ulu Öndər Heydər Əliyev, eyni zamanda, dövlətin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində də mühüm addımlar atdı. Belə ki, onun rəhbərliyi və bilavasitə iştirakı ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaratdı. Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğunun təmin olunması, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində ciddi addımlar atıldı.

Ümummilli Lider Heydər Əliyev xalqımızın yaddaşında müdrik siyasətçi, qətiyyətli iradəsi və əzmkarlığı ilə fərqlənən böyük şəxsiyyət olaraq, eyni zamanda həm də bütün dünyada görkəmli dövlət xadimi kimi tanınmışdır. Respublikanın rəhbəri olduğu dövrdə Ulu Öndər təcrübəli dövlət xadimi kimi ölkəmizin ictimai həyatının bütün sahələrində öz bilik və bacarıqlarını xalqının yaşayış rifahının yüksəldilməsinə yönəltmişdir.

Beləliklə, bu gün ölkəmizin dinamik sosial-iqtisadi inkişaf yolunda inamla irəliləməsi, iqtisadi inkişaf tempinə görə böyük uğurlar qazanması, öz milli maraqlarını müvəffəqiyyətlə təmin etməyə qadir bir dövlət kimi müstəqil siyasət yürütməsi, irimiqyaslı layihələri həyata keçirməsi, büdcə gəlirlərini ildən-ilə əhəmiyyətli dərəcədə artırması, müdafiə qüdrətini gücləndirməsi və İkinci Qarabağ müharibəsində möhtəşəm qələbə qazanması Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliklə əsasını qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir. Ulu Öndərin siyasətinin təntənəsi kimi dəyərləndirilən möhtəşəm uğurlarımızın miqyası bundan sonra daha da genişlənəcək.

# SERTİFİKASİYA – davamlı inkişaf

## "Sertifikasiyada uğurum karyerama da təsir göstərdi"

İlk sertifikasiya imtahanlarında uğur qazanaraq ən yüksək bal toplayan daha bir müəllim. 49 yaşlı Əfsanə Hüseynova müəllimlikdə bir qərinəni arxada qoyub ikinci qərinəyə başlayıb. Sadəcə təcrübəli yox, həm də peşəkar, işini sevən və yenilikçidir. Deyir, bir müəllimin dərs dediyi fəndən sertifikasiya imtahanı verməsi üçün xüsusi hazırlığına ehtiyac yoxdu. Hər gün şagirdlərindən soruşduqları burada onların öz qarşılarına qoyulur. Cavabını tapmaqda uşaqlarına kömək elədiyi sualları cavablandırmaq onlar üçün çətin olmamalıdır. Əfsanə müəllim də müəllimlik sınaqlarına xüsusi kurs keçmədən, müəllimdən dəstək almadan girib və uğurla çıxıb. Onun uğurunun sirri necə hazırlaşmağında yox, yaxşı müəllim olmağında gizlənib.



### Sertifikasiyada yüksək nəticə göstərən müəllimin uğur hekayəsi

#### İlk sınaq, ilk uğur: Diaqnostik qiymətləndirmə

Barəsində söhbət açdığımız uğurlu müəllim Həsənbəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun Qazax filialından məzun olub. İbtidai sinif müəlimliyi ixtisası üzrə təhsilini tamamladıqdan sonra Ağstafa rayonunun Eynallı kəndində müəllimliyə başlayıb. Düz 29 il Eynallı kənd tam orta məktəbində dərs deyib. Müəllimlikdə ilk sınağını da elə Eynallı kənd müəllimi olaraq verib. Diaqnostik qiymətləndirmə imtahanında 58 bal toplayıb: "Əslində, diaqnostik qiymətləndirmədə də ən yüksək bal toplamalıydım. Məktəbimizdə hər kəs məndən bunu gözləyirdi. Amma olmadı.Texniki problem səbəbindən mümkün olan maksimum balı yığa bilmədim".

#### Yerdəyişmə müsabiqəsində şansı artdı

Mümkün olan ən yüksək bal olmasa da, kifayət qədər həlledici olan qiymətləndirmə nəticələri ilə yerdəyişmə müsabiqəsində iştirak edib və balı bu müsabiqədə şansını da, gücünü də artırıb: "Oğlumla qızlarımdan biri təhsil almaq məqsədilə Bakıya gəlmişdi. Ailəmiz iki yerə bölünmüşdü. Ona görə yaşayış yerimizi dəyişməli, biz də Bakıya köçməli olduq. Diaqnostik qiymətləndirmədə yüksək nəticə göstərmişdim. Yerdəyişmə müsabiqəsində Mehdiabad qəsəbə 5 nömrəli tam orta məktəbə yerləşdirildim".

#### İkinci böyük sınaq: sertifikatlaşdırma

Müəllim kimi qazandığı uğura hər il daha bir uğur, daha böyük təcrübə qazandırıb ona. Amma sertifikatlaşdırma prosesindən uğurla çıxmasında ən böyük rol imtahanlara soyuqqanlı münasibəti olub: "Sertifikasiya olacağını eşidəndə heç narahat olmadım. Sadəcə köhnə biliklərimi aktivləşdirdim. Metodika yenilik sevir və bu istiqamətdə materiallar oxudum. Sertifikatlaşdırmada maksimum bal topladım. Həm imtahandan ən yüksək 60 bal, həm müsahibə mərhələsində mümkün olan ən yüksək 40 bal topladım. 100 balla bu prosesi uğurla başa vurdum".

Əfsanə müəllimin nəticələri təəccüb doğurmayıb: "Əslində bu nəticə ilə mənə olan etimadı doğrultdum.Diaqnostik qiymətləndirmədə nəinki mənim hədəfim, işlədiyim məktəbin, məni tanıyanların da gözləntisi ən yüksək bal idi. Amma olmamışdı. Sertifikasiyada bu hədəfimə çatmalıydım, çatdım da".



Bu hədəfinə sertifikasiyada nail olmasında diaqnostik qiymətləndirmədə yol verdiyi yanlışı nə qədər rol oynayıb: "Sertifikasiyaya hazırlaşarkən hansısa müəllimin, hər hansı kursun köməyindən istifadə etmədim. İxtisasımla bağlı da, metodikadan da özümə güvənirəm. Diaqnostik qiymətləndirmə zamanı tələsmişdim. Bu dəfə diqqətli oldum və imtahanı səhvsiz başa çatdırdım".

#### Karyerada addım-addım

Əfsanə Hüseynova peşəsini sevən, sevdiyi üçün də öz üzərində işləyən bir müəllimdir. Təhsildə sözü edilən hər yeniliyi öncə araşdırıb, sonra tətbiq edib: "Hələ kurikulumun tətbiqinin ilk vaxtlarında - bəzilərinin "necə edəcəyik", - deyib giley-güzar etdiyi vaxtda mən kurikulumu öyrəndim və tətbiq etdim. Hələ üstəlik, həmkarlarımdan köməyə ehtiyacı olanlara yeni təhsil proqramını anlamaqda yardım əli uzatdım. Öyrənməyi və öyrətməyi çox sevirəm. Hər hansı ideya varsa, təklif verilibsə, lazımi səviyyədə araşıdırıb effektivliyini, səmərəliliyini qiymətləndirirəm, sonra tətbiqinə başlayıram".

"Özümü qiymətləndirən biriyəm" - deyən Əfsanə müəllim özünü qiymətləndirərkən liderlik bacarığını da unutmur. Özünü yaxşı idarə edir, kommunikasiya bacarıqları sayəsində başqaları ilə səmərəli əməkdaşlığın yollarını tapır. Bu bacarıqları yeni vəzifəsində də ona çox lazım olacaq. Deyir, bu bacarıqlarını qiymətləndirdiyi üçün direktor müavini müsabiqəsinə qatılıb və həm də sertifikatlaşdırma prosesinin nəticəsi olaraq karyera pilləsində bir addım irəliləyib. Artıq 2 aydır Masazır kənd 4 nömrəli tam orta məktəbində təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsində çalışır: "Sertifikasiyada uğurum karyerama da təsir göstərdi. Direktor müavini müsabiqəsinə qatıldım və Masazır kənd 4 nömrəli tam orta məktəbinə tədris işləri üzrə direktor müavini vəzifəsinə təyin edildim. Fevral ayından bu vəzifəni icra edirəm".

Vəzifəyə yeni təyinat alsa da, bu işin onun üçün yeni olmadığını deyir: "Ağstafada müəllim yoldaşlarıma, işim bu olmasa da, kömək edirdim. Eynallı kənd məktəbində hər hansı yeniliyi araşdırır, öyrənir, tətbiq edir və həmkarlarıma da yol göstərir, metodiki dəstək verirdim. Mehdiabadda işləyərkən də belə oldu. Bir sözlə, harada işləməyimdən asılı olmayaraq, idiyədək tədris prosesinə aid çətinliyi olan hər kəsə problemsiz kömək etmişəm. Artıq bu işi vəzifəm olaraq həyata keçirəcəyəm".

#### Biliyini şagirdlərinə, təcrübəsini həmkarlarına ötürür

2 ildir Təhsil İnstitutunun təlimçisi olan Əfsanə Hüseynova deyir biliyini paylaşmağı, həmkarlarına da öyrətməyi hələ gəncliyindən çox sevir: "Sertifikasiyada ən yüksək nəticə göstərənlərdən olduğundan uğursuz nəticə göstərənlər üçün təşkil edilən təlimlərdə təlimçi olaraq yaxşı müəllim olmağın sirlərini paylaşıb: "60 nəfərə yaxın müdavimim vardı. Aralarında bir qisminin bilik və bacarıq səviyyəsi aşağı olsa da, əksəriyyətinin uğursuz nəticə göstərməsinə həyəcan və stress səbəb olub. Texniki problemlərlə qarşılaşıb, yaxud kompüterlə işləyə bilməyib deyə nəticəsi uğursuz olanlar da vardı".

Ə.Hüseynova sertifikasiyada uğursuz olanlara ikinci şans verilməsini də alqışlayır: "Hesab edirəm düzgün verilmiş qərardır. Mən də müəllim kimi bu şansa görə Elm və Təhsil Nazirliyinə təşəkkür edirəm. Əminəm ki, həmkarlarım da bu şansı lazımınca dəyərləndirəcək və uğurlulardan olacaqlar".

**Ruhiyyə DAŞSALAHLI**



## SERTİFİKASİYADA ikinci şans

### *Rüfət Əzizov:* "Təlimlər sertifikatlaşdırma nəticəsində müəyyən olunmuş təlim ehtiyaclarına uyğun olaraq müəllimlərin tədris bacarıqlarının təkmilləşdirilməsinə xidmət edir"

Ötən il sertifikasiya imtahanında iştirak edən 2803 nəfər uğursuz nəticə göstərib. Bu il həmin müəllimlər yenidən imtahan verəcək. Avqust ayına planlaşdırılan imtahanda uğur qazanmasalar, onlarla əmək müqaviləsinə xitam veriləcək. Bu imtahanları "müəllimlər üçün ikinci şans" adlandıran elm və təhsil naziri Emin Əmrullayev onların bu şansdan maksimum yararlanacağına ümid etdiyini bildirib: "Həmin müəllimlər üçün 57 təlim mərkəzində təlimlər təşkil edilir. Mart ayından start verilən təlimlərlə müəllimlərimizə kömək etməyə çalışırıq".

#### "200 müəllim də bizə müraciət edərək təlim istədi"

"Azərbaycan müəllimi" araşdırıb ki, bu kömək nədən ibarətdir və müəllimlər onu necə dəyərləndirirlər?

Təhsil İnstitutunun direktoru Rüfət Əzizov "Azərbaycan müəllimi"-nə açıqlamasında deyib ki, Təhsil İnstitutunun təşkil etdiyi və 3 ay davam edən təlimlərdə 2180 nəfər iştirak edib: "505 müəllim ərizə yazaraq təlimlərdən imtina etmişdi. Amma sonradan təxminən 200 müəllim də bizə müraciət edərək təlim istədi və onlara da təlim keçdik. 32 müəllim isə ya işdən çıxıb, ya vəfat etməsi səbəbindən təlimlərdən kənarda qalıb".

Təlimlər ibtidai sinif üzrə Azərbaycan dili və riyaziyyat fənləri üzrə olub və ixtisasartırma təlimi formasında keçilib: "2023-cu ildə təkrar sertifikasiya imtahanında iştirak edəcək ibtidai sinif müəllimlərinə dəstək məqsədilə "İbtidai təhsil səviyyəsində Azərbaycan dili və riyaziyyat fənlərinin məzmunu" adlı 48 saatlıq ixtisasartırma təlimləri həyata keçirilir. Bu təlimlər sertifikatlaşdırma nəticəsində müəyyən olunmuş təlim ehtiyaclarına uyğun olaraq müəllimlərin tədris bacarıqlarının təkmilləşdirilməsinə xidmət edir".

#### Sertifikasiyada uğur qazananlar da təlimlərdə iştirak edir

R.Əzizovun sözlərinə görə, mart ayından etibarən başlanan təlimlərə Bakı şəhəri, Abşeron-Xızı, Gəncə-Daşkəsən və Quba-Xaçmaz regional təhsil idarələrinin tabeliyində olan təhsil müəssisələrinin müəllimləri cəlb edilib: "Əyani həyata keçirilən təlimlərdə 2180 nəfər müəllim iştirak edib. Müəyyən səbəblərdən əyani keçirilən təlimdə iştirak edə bilməyən müəllimlər üçün onlayn təlimlər təşkil olunub. Hazırda onlayn təlimlərdə 200 nəfərdən artıq müəllim iştirak edir".

Təlim proqramı sertifikatlaşdıma imtahanının məzmununa uyğun olaraq müəllimlərin təlim ehtiyacları əsasında hazırlanıb. Təlimlər müəllimlərin iş və ya yaşayış yerlərinə yaxın mərkəzlərdə təşkil olunub.

İnstitut direktorun sözlərinə görə, bir çox qruplarda təlimlərin bitməsinə baxmayaraq, təlimçilərlə müəllimlərin əməkdaşlığı davam edir: "Belə ki, təkrar sertifikasiya imtahanına hazırlaşan müəllimlərin sualları yarandıqda bir daha təlimçilərlə əlaqə yaradıb problemin həll yollarini birgə müəyyən edirlər".

R.Əzizov onu da əlavə edib ki, il ərzində başqa dəstəkləyici tədbirlər də keçirilib: "100-dən artıq maarifləndirici və birbaşa fənlərlə bağlı olan seminarlar, regionlarda görüşlər, vebinarlar keçirilib. Təlimatlar və metodik vəsaitlər hazırlanıb təhsil institutunun veb səhifəsinə yerləşdirilib".

R.Əzizov təlimlərdə yüksək nəticə göstərən müəllimlərin qüvvəsindən, bilik və bacarıqlarından da istifadə edildiyini vurğulayıb: "Təlimləri, əsasən ötən tədris ilində sertifikatlaşdırma imtahanında yüksək nəticə göstərən müəllimlər keçir. Bu da müəllimlərə fəaliyyətlərini səmərəli qurmaq üçün daha da stimul verir".

R.Əzizov deyir ki, müəllimlərin hər çətinliyinin nəzərə alınması, onların sertifikasiya imtahanına hazırlaşa bilmələri üçün hər şəraitin yaradılması nəticəsiz qalmayıb: "Müəllimlərdən çox yaxşı rəylər alırıq. Həm təlimlərimizin nəticəsi, həm də təlimlərin səmərəli şəkildə təşkilinin nəticəsi razılıqla qarşılanır. Müəllimlər prosesdən çox razı qaldıqlarını hər fürsətdə dilə gətirirlər. Təlimin səmərəli təşkili, məzmunun ehtiyaclara uyğun olması, həmçinin təlim keçirilən məkanların müəllimlərin iş və yaşayış yerlərinə yaxın olması müəllimlərin məmnunluğuna səbəb olub".

O, ikinci şansından mütləq istifadə edəcək.

#### "Bu təlimlər sayəsində əvvəlkindən daha yaxşı nəticə əldə edəcəyimə şübhə etmirəm"

Bəs, müəllimlər özü nə deyir?

Elməddin İsgəndərov ikinci şans qazanan müəllimlərdəndir. Göygöl rayonu Bənövşəli kənd tam orta məktəbin ibtidai sinif müəllimidir. Hesab edir ki, ona verilən bu şansdan lazımınca yararlanacaq: "2 ay təlimlərə qatıldım. Şənbə və bazar günləri keçdik dərsləri. Təlim proqramı 48 saat təşkil etsə də, biz zamandan artıqlaması ilə istifadə etdik. Bir müəllim kimi mənə çox köməyi oldu bu təlimlərin. Olduqca razı qaldım. Bilmədiyim bölmələr vardı. Həmin bölmələr üzərində daha çox işləmək, yanlışlarımı anlamaq imkanım oldu. Buna görə təlimçimiz Türkan Əlizadəyə çox təşəkkür edirəm. Nə soruşduqsa cavab aldıq. Üstəlik, əlaqələrimiz hələ də davam edir. Mən bu imtahanlara çox ümidliyəm. Keçid balını toplayacağıma, təlim sayəsində əvvəlkindən daha yaxşı nəticə əldə edəcəyimə şübhə etmirəm".

**Ruhiyyə DAŞSALAHLI**

# Heydər Əliyev adına Hərbi İnstitut

2023/2024-cü tədris ili üçün aşağıdakı mülki professor-müəllim vəzifələrinə müsabiqə

## ELAN EDİR:

**İdarəetmə və informasiya texnologiyaları kafedrası**

*1. İdarəetmə və sistem mühəndisliyi silsiləsi:*
Professor - 1 (bir) yer (İqtisadiyyat)
Müəllim - 3 (üç) yer (İqtisadiyyat)

*2. İnformasiya texnologiyaları silsiləsi:*
Dosent - 1 (bir) yer (İnformasiya texnologiyaları)
Müəllim - 1 (bir) yer (İnformasiya texnologiyaları)

**Texniki fənlər kafedrası**

*3. Tətbiqi mexanika silsiləsi:*
Dosent - 1 (bir) yer (Tətbiqi mexanika)
Müəllim - 1 (bir) yer (Tətbiqi mexanika)

**Elektronika və telekommunikasiya kafedrası**

*1. Elektronika silsiləsi: (Radiotexnika və telekommunikasiya mühəndisi)*
Dosent - 1 (bir) yer
Baş müəllim - 2 (iki) yer

*2. Telekommunikasiya silsiləsi: (Radiotexnika və telekommunikasiya mühəndisi)*
Professor - 1 (bir) yer
Dosent - 1 (bir) yer
Baş müəllim - 3 (üç) yer

*3. Radiotexnika silsiləsi: (Radiotexnika və telekommunikasiya mühəndisi)*
Professor - 1 (bir) yer
Baş müəllim - 4 (dörd) yer

**NATO/Sülh naminə tərəfdaşlıq və Humanitar fənlər kafedrası**

*1. Humanitar və sosial fənlər silsiləsi:*
Baş müəllim - 1 (bir) yer (Azərbaycan tarixi)
Baş müəllim - 1 (bir) yer (Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları)
Baş müəllim - 1 (bir) yer (Azərbaycan dilində işgüzar və akademik kommunikasiya)
Müəllim - 1 (bir) yer (Azərbaycan dilində işgüzar və akademik kommunikasiya)

**Fundamental və təbiət fənləri kafedrası**

*1. Ali riyaziyyat silsiləsi:*
Dosent - 1 (bir) yer (Mühəndislik riyaziyyatı)
Dosent - 1 (bir) yer (Tətbiqi riyaziyyat)
Baş müəllim - 1 (bir) yer (Riyazi analiz)
Baş müəllim - 1 (bir) yer (Diferensial tənliklər)
Müəllim - 1 (bir) yer (Riyazi analiz)

*2.Fizika silsiləsi:*
Baş müəllim - 1 (bir) yer (Fizika)

**Xarici dillər kafedrası**

*1. İngilis dili silsiləsi:*
Dosent - 1 (bir) yer
Baş müəllim - 3 (üç) yer
Müəllim - 9 (doqquz) yer

*2. Rus dili silsiləsi:*
Dosent - 3 (üç) yer
Baş müəllim - 3 (üç) yer
Müəllim - 3 (üç) yer

**Aerokosmik mühəndisliyi kafedrası**

*1. Uçuş fənləri silsiləsi:*
Baş müəllim - 1 (bir) yer (Naviqasiya)

**Gəmiçilik sistemləri kafedrası**

Baş müəllim - 1 (bir) yer (Rabitə texniki vasitələrinin etibarlılığının əsasları)

**MÜSABİQƏNİN ŞƏRTLƏRİ**

a) Professor vəzifəsini tutmaq üçün müsabiqədə professorlar və elmlər doktorları iştirak edə bilərlər.
b) Dosent vəzifəsini tutmaq üçün müsabiqədə professorlar, dosentlər və elmlər doktorları və elmlər namizədləri (fəlsəfə doktorları) iştirak edə bilərlər.
c) Baş müəllim vəzifəsinə elan olunmuş müsabiqədə, bir qayda olaraq, ən azı **3 illik** elmi-pedaqoji stajı olan elmlər namizədləri (fəlsəfə doktorları) və ya ən azı **5 illik** elmi-pedaqoji və ya istehsalat təcrübəsi, çap olunmuş elmi-metodiki işləri olan yüksəkixtisaslı ali təhsilli mütəxəssislər (magistrlər) iştirak edə bilərlər.
d) Müəllim vəzifəsinə müsabiqədə elmi-pedaqoji və ixtisası üzrə ən azı **1 il** iş stajı olan elmlər namizədləri (fəlsəfə doktorları), eləcə də ən azı **3 il** elmi-pedaqoji stajı və ya istehsalat təcrübəsi, çap olunmuş elmi-pedaqoji işləri olan ali təhsilli mütəxəssislər (magistrlər) iştirak edə bilərlər.
e) Müsabiqədə iştirak etmək istəyən hər bir şəxs rektorun adına ərizə ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:

1. Kadrların şəxsi qeydiyyat vərəqəsi;
2. Ali təhsil, elmi ad və elmi dərəcə haqqında sənədlərin surəti (notarial qaydada təsdiq olunmuş)
3. Tərcümeyi-hal;
4. Dərc olunmuş elmi əsərlərin, kəşf və ixtiraların təsdiq olunmuş siyahısı (müdafiəyə qədər və sonra)

*Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan olunduğu gündən başlayaraq 30 gündür.*

*Tədris Azərbaycan dilindədir*

**Ünvan:** Bakı şəhəri, general-mayor Polad Həşimov küçəsi №1
Heydər Əliyev adına Hərbi İnstitut
**İndeks:** AZ 1018. **Tel:** (050) 454 23 35

"AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 5686 **Sifariş** 1539

**Məsul növbətçi:** O.Mustafayev

# Etibarsız sayılır

**Bakı şəhər** 281 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Əhmədli Arzu İlahi qızına verilmiş A-717491 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 281 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Mirzəyeva Aynurə Bülbül qızına verilmiş A-100150 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Tibb Məktəbi** (indiki 1 nömrəli Bakı Tibb Kolleci) tərəfindən 2009-cu ildə Babayeva Hicran Rüstəm qızına verilmiş BB-II-084733 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2003-cü ildə Abdullayev Azər Vaqif oğluna verilmiş A-112117 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Goranboy şəhər** 1 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Əzizova Zümrüd Vidadi qızına verilmiş A-150910 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 18 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Mürsəlova Firuzə Elçin qızına verilmiş A-540816 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 39 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Süleymanlı Ömər Rafael oğluna verilmiş E-477154 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 37 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş Novruzova Günəş Teymur qızına verilmiş 391398 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 8 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Hüseynli Ülvi Fazil oğluna verilmiş E-054721 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** Yuxarı Mərcanlı kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Məstəliyeva Minə Fəxrəddin qızına verilmiş A-340334 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 135 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Quliyeva İlhamə Rza qızına verilmiş B-184014 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutu Gəncə filialı** tərəfindən 2012-ci ildə Əliyeva (Quliyeva) Lalə Vahid qızına verilmiş B-230310 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2015-ci ildə Rəhimli Nigar Adil qızına verilmiş A-072938 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2017-ci ildə Rəhimli Nigar Adil qızına verilmiş AM-016344 nömrəli magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Zəngilan rayon** 26 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Ağayeva Laçın Ələkbər qızına verilmiş B-341390 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xırdalan şəhər** 2 nömrəli tam orta məktəbin IX sinfini 1991-ci ildə bitirmiş Həsənov Elnur Rizvan oğluna verilmiş A-656300 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Tibb Məktəbi** tərəfindən 2007-ci ildə İmanov Məğrur Kərəm oğluna verilmiş BB-II-052862 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Qabaqçöl qəsəbə tam orta məktəbi 2010-cu ildə bitirmiş Bazarova Ayşə Nurullah qızına verilmiş B-705486 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Zeyvə kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Rzayeva Günay Oktay qızına verilmiş 734539 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Siyəzən şəhər** 6 nömrəli məktəb-liseyi 2012-ci ildə bitirmiş Ağamalıyev Xudayar Şahin oğluna verilmiş A-129961 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Saray qəsəbə 1 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Səhəbova Təranə Kamran qızına verilmiş A-442347 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 34 nömrəli tam orta məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Hüseynov Ceyhun Fəzail oğluna verilmiş B-097536 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 233 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Vasilyeva Mariya Borisovnaya verilmiş 669304 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2019-cu ildə İsmayılzadə Rza Vasif oğluna verilmiş C-039931 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 38 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş İbrahimova İlahə Aydın qızına verilmiş A-655936 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** akademik M.Mehdizadə adına 3 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Hüseynova Aynur Kərəm qızına verilmiş A-048262 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Məmmədli kənd tam orta məktəbi 1992-ci ildə bitirmiş Həsənova Zərnişan Əliqulu qızına verilmiş A-028407 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2022-ci ildə Salahova Lamiyə Natiq qızına verilmiş təhsil kartı itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Sumqayıt Peşə Liseyi** (Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 1998-ci ildə İslamov Ceyhun Arif oğluna verilmiş AB-026205 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 3 nömrəli tam orta məktəbi 1989-cu ildə bitirmiş İbadova Gülarə Rüstəm qızına verilmiş 557702 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Dəmirçi kənd 1 nömrəli tam orta məktəbi 2018- ci ildə bitirmiş Məmmədov Sadiq Şahin oğluna verilmiş E-173235 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci** tərəfindən 2017-ci ildə Beyməmmədova Röyalə Sahil qızına verilmiş AA-101582 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2019-cu ildə İbrahimova Səbinə İlqar qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutu Mingəçevir filialı** tərəfindən 2007-ci ildə Süleymanova Aytən Mahir qızına verilmiş B-136110 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2019-cu ildə Ədilov Sənan Xəyyam oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** İsmətli kənd tam orta məktəbin IX sinfini 1983-cü ildə bitirmiş Dövlətov Rəfail Çapar oğluna verilmiş 516217 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** İsmətli kənd tam orta məktəbi 1985-ci ildə bitirmiş Dövlətov Rəfail Çapar oğluna verilmiş 033005 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ukrayna Milli Mülki Müdafiə Universiteti** tərəfindən 2013-cü ildə Abbasov Faiq Əşrət oğluna verilmiş ДІ-041421 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2019-cu ildə Heydərov Heydər Elnur oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2019-cu ildə Qurbanlı Sərxan Səbuhi oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2019-cu ildə Əlizadə Yusif Allahverən oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**88 nömrəli Texniki Peşə Məktəbi** (17 nömrəli Bakı Peşə Liseyi) tərəfindən 1990-cı ildə Quliyev Polad Cahangir oğluna verilmiş 234382 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gəncə Tibb Kolleci** tərəfindən 2019-cu ildə Quliyeva Xədicə Rasim qızına verilmiş AA-128701 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2018-ci ildə Qədirova Aysel Zeynəddin qızına verilmiş C-012300 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Tasmalı kənd tam orta məktəbi 1994-cü ildə bitirmiş Məmmədova Aygün Rizbulla qızına verilmiş A-018693 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Xanqərvənd kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Əkbərova Gülnar Namiq qızına verilmiş B-419017 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Zəlimxan kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Məmmədova Zülfiyyə Nəsib qızına verilmiş B-408307 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 30 nömrəli tam orta məktəbi 1990-cı ildə bitirmiş Hacıyeva Hicran Tahir qızına verilmiş A-619662 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2007-ci ildə Quliyev Məmməd Akif oğluna verilmiş B-110637 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 3 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Tapdıqov Kainat Natiq oğluna verilmiş A-059779 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2019-cu ildə Məmmədov Babacan Adil oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Yardımlı rayon** Alçabulaq kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Novruzova Nihalə Heybət qızına verilmiş B-095595 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2021-ci ildə Məmmədova Nərgiz Asif qızına verilmiş C-093769 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2002-ci ildə Əliyeva Aynur Fərəməz qızına verilmiş A-105409 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Məktəbəqədər Pedaqoji Texnikum** (indiki Lənkəran Dövlət Universiteti nəzdində Sosial və Aqrar Texnoloji Kollec) tərəfindən 1992-ci ildə Qurbanova (Əliyeva) Minayə Əskər qızına verilmiş PT-I-129577 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şahbuz rayon** Külüs kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş İbrahimova Həmidə Vasif qızına verilmiş A-281171 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

# Müəllimlərin sertifikasiyası

## Dünya ölkələrində proses necə həyata keçirilir?

Yeni yüzilliyin başlanğıcında bir çox ölkələrdə milli təhsil sistemlərinin yenilənməsi və islahatı prosesləri başlandı. Ümumi tendensiya təhsilin keyfiyyətinin artırılması məqsədilə vahid təhsil standartlarının tətbiqi idi. Gələcək müəllimin peşə hazırlığı prosesi təhsil müəssisələrində təhsil aldığı dövrlə bitmir. Bu, məktəbdə ibtidai uyğunlaşma dövründə (induksiya dövrü) və sonrakı peşə fəaliyyətində də davam edir. Müəllimlərə öz səriştələrini inkişaf etdirmək və genişləndirmək səylərində dəstək sürətlə dəyişən dünyada həyati əhəmiyyət daşıyır. Demək olar ki, bütün ölkələrdə müəllimlərin səriştələrinin inkişaf səviyyəsinin qiymətləndirilməsi zəruriliyi etiraf olunur. Bu qaçılmaz zərurət təhsil sistemlərinə və təhsilverənlərə nə qazandırır:

- müəllimə öz səriştələrinin inkişafını dərk etməyə kömək edir;
- pedaqoji mədəniyyətdə və təcrübədə dəyişikliklər prosesinə yardım göstərir;
- yeni səriştələrin formalaşmasına imkan verir;
- tədrisin nəticələrinə nəzarətin təmin edilməsində mühüm rol oynayır ki, bu da onların təkmilləşdirilməsinə kömək edir;
- Bu, müəllimə steykholderlər (maraqlı şəxslər və ya qurumlar) tərəfindən etimad dərəcəsini artırır.

Bu hədəflərə çatmaq üçün ayrı-ayrı ölkələrdə təhsil işçilərinin sertifikatlaşdırılması həyata keçirilir. Məsələn, ABŞ-da müəllimlərin sertifikatlaşmasını/attestasiyasını milli standartlar üzrə xüsusi təşkilatlar təşkil edir.





**ABŞ-da** müəllimlərin peşə səriştələrinin qiymətləndirilməsi müxtəlif yollarla, o cümlədən sertifikatlaşdırma vasitəsilə həyata keçirilir. İki aparıcı təşkilat - 1987-ci ildə yaradılmış Pedaqoqun Peşəkar Standartları üzrə Milli Şurası (National Board for Professional Teaching Standards - NBPTS) və Yeni Müəllimləri Qiymətləndirmə və Dəstəkləmə Regionlararası Konsorsiumu (Interstate New Teacher Assessment and Support Consortium - INTASC) birgə səylərlə müəllimlərin milli standartlarını hazırlayıb. Pedaqoqların bu yüksək standartlara uyğunluğu “çərçivə”, yəni, tövsiyə xarakteri daşıyır. Müxtəlif ştatlarda standartlar və onlara uyğun səriştələrin sayı fərqlidir. Ayrı-ayrı ştatlarda peşəkar inkişaf səviyyələri də fərqli şəkildə müəyyənləşdirilir. Qeyd etmək lazımdır ki, NBPTS sertifikatı pedaqoji fəaliyyətə giriş üçün lazım olan dövlət sertifikatının əvəzi deyil (tam təhsil kursunu bitirdikdən sonra pedaqoji kolleclərin bütün məzunları bunu alır). Beləliklə, NBPTS sertifikatı - peşədə yüksək nailiyyətlərin sübutudur. Məktəbdə ən azı 3 il tam iş təcrübəsi olan müəllimlər bu sənədi əldə edə bilərlər. Milli Şura tərəfindən təşkil olunan sertifikatlaşdırma - peşəkar pedaqoji ictimaiyyətin iştirakı ilə aparılan, könüllü, praktikaya yönəldilmiş, müəllim əməyinin mürəkkəb, çoxşaxəli xarakterini nəzərə alan prosesdir. Milli Şura müstəqil, qeyri-kommersiya təşkilatıdır və qərarların qəbulunda məktəb müəllimləri bütün mərhələlərdə birbaşa iştirak edirlər. Milli Şura təhsil keyfiyyətinin artırılmasında maraqlı olan tərəfdaşlarla - dövlət və regional hakimiyyət orqanları, qeyri-hökumət təşkilatları, universitetlər və digər tərəflərlə sıx əməkdaşlıqda çalışır. Sertifikatlaşdırma 25 fənn sahəsi və 7 yaş kateqoriyası üzrə aparılır. Sertifikat 5-10 il müddətində qüvvədədir. Müəyyən edilmiş müddət başa çatdıqdan sonra onu yeniləmək olar. Bunun üçün bir qayda olaraq, sertifikatlaşdırma dövrünün bütün mərhələlərini təkrar keçmək tələb olunmur.

**Avstraliyada** 4 ixtisas səviyyəsi var: təhsil kursunu bitirmiş ali təhsil müəssisəsinin məzunları, mütəxəssislər, yüksəkixtisaslı pedaqoqlar və aparıcı pedaqoqlar. Üstəlik, pedaqoq adına iddia edən namizədlərin seçilməsi universitetlərə qəbul olunmazdan əvvəl keçirilir. Pedaqoji təhsil aldıqdan sonra isə yeni işə başlayan mütəxəssislər müəllim vəzifəsinə qeydiyyata götürülür. Bu müddət ərzində müəllim adına iddiaçılar tədris və təhsilin təhlili, mentorla iş haqqında məlumatlar, inkişaf proqramları və onun həyata keçirilməsi ilə bağlı nəticələr olan portfolionun toplanması ilə illik uyğunlaşma dövründən keçirlər. Avstraliyada sertifikatlaşdırmanın vəzifələri aşağıdakılardır:

- müəllimin təmin etdiyi tədrisin keyfiyyətini müəyyənləşdirmək;
- müəllimlərə peşə fəaliyyətində özünürefleksiya (özünü təqdimetmə) imkanı vermək;
- nəticələrinin tanınması və ya təhsil müəssisələrinin yüksəkixtisaslı, aparıcı əməkdaşlarının mükafatlandırılması/təşviqi ilə keyfiyyətli tədris sisteminin təmin edilməsi.

**Yaponiyada** sertifikasiya prosesində “üç səviyyəli sınaq” tətbiq olunur: 1)pedaqoji nəzəriyyə üzrə test; 2)konkret fənn materialını dərindən bilmək, metodik bacarıq və səriştələr; 3)namizədlə müsahibə, o cümlədən müəllimin kommunikativ səriştələrinin, komandada işləmək bacarığının, peşəkar bacarıqlarının, dəyərli mövqelərinin qiymətləndirilməsi. Bu model məktəblərdə işləmək üçün müəllimlərin seçilməsini nəzərdə tutur və prefekturaların (inzibatı ərazi vahidləri) rəhbərləri tərəfindən aparılır.

**Almaniyada** müəllimlik statusu almaq hətta magistrantlara belə mümkün deyil. Ali məktəbin məzunu müəllim hazırlığının iki mərhələsindən keçməlidir:

* nəzəri - universitetdə təhsil almaq və birinci dövlət imtahanından keçmək;
* praktiki reenerdariat - təhsil müəssisəsində təcrübə və ikinci dövlət imtahanından keçmək.

Məzunların pedaqoji hazırlığını gənc müəllimlərlə işləməkdə mühüm rol oynayan pedaqoji təhsil mərkəzi həyata keçirir. Burada məzunlar dövlət imtahanlarını verir, təcrübə dövründə tam dəstək alır, nəticədə iki prosedurdan ibarət imtahan verirlər: tədris olunan iki fəndən hər biri üzrə bir açıq dərs, tədqiqat və kollokvium mövzusu üzrə müstəqil yazılı iş (şifahi imtahan).

Əgər iddiaçı iki dərs üçün kifayət qədər bal toplaya bilməsə, onda yazılı sınaq işinə və kollokviuma icazə verilmir. Kollokvium müəllim tərəfindən seçilən mövzuda müzakirə, fikir mübadiləsi formatında keçirilir. Bu imtahandan uğurla keçmək üçün namizədlər pedaqoji təhsil mərkəzində hazırlıq kursuna cəlb olunurlar. Müəllimin sonrakı peşəkar inkişafı xidməti qiymətləndirmə ilə müəyyən edilir.

Avropa ölkələrində, ABŞ-da, Avstraliyada pedaqoqların peşə fəaliyyətinin qiymətləndirilməsində aşağıdakı oxşar meyillər aşkar edilir:

- bu gün təhsilin modernləşdirilməsi prosesinin mərkəzi fiquru müəllimdir, təhsilin keyfiyyəti məhz ondan asılıdır;
- müəllimlər tərəfindən peşəkarlıq səviyyəsinin artırılması üçün müxtəlif maddi və qeyri-maddi stimullardan, həmçinin normativlərdə əksini tapmış, praktik fəaliyyətə başlamaq üçün pedaqoji ixtisas səviyyəsinin icbari qiymətləndirilməsindən istifadə olunur.

**Ukraynada** müəllimlərin sertifikatlaşdırılması ilk pilot layihə olaraq 2019-cu ildə keçirilib, o zaman 857 qeydiyyatdan keçmiş 705 pedaqoq sertifikatlaşdırmada uğur qazanıb. 2020-ci ildə könüllü sertifikatlaşdırma üçün 2000 kvota üzrə 1591 nəfər qeydiyyata alınıb. 902 ibtidai sinif müəllimi sertifikatlaşdırma prosedurundan uğurla keçib. 2021-ci ilin fevralından başlanan sertifikatlaşdırmada isə 2000-dən çox pedaqoq iştirak edib. Rəqəmlər ukraynalı müəllimlərin sertifikatlaşmaya artan marağını əks etdirir. Ukraynada sertifikasiya könüllüdür, pedaqoq prosesin istənilən mərhələsində iştirakdan imtina edə bilər. Sertifikat üç il müddətindədir. Güman edilir ki, gələcəkdə “Yeni Ukrayna məktəbi” islahatının inkişafı ilə əlaqədar sertifikatlaşdırma müəllimlərin attestasiyasını əvəz edəcək. Ukraynanın Təhsil Ombudsmanı Xidməti hesab edir ki, sertifikatlaşdırma müəllimə ixtisas dərəcəsi vermək üçün əsasdır. Ombudsman Xidməti sertifikatlaşdırma və ixtisaslaşma arasında fərqləri müəyyən edir. Qanuna görə, sertifikatlaşdırmadan müvəffəqiyyətlə keçmək müəllimin attestasiyadan keçməsi kimi hesablanır, həmçinin ona müvafiq ixtisas kateqoriyası və ya pedaqoji ad verilməsində əsas olur. “Əgər müəllim sertifikatlaşdırmadan müvəffəqiyyətlə keçibsə, ona sertifikat verilir ki, o, növbəti ixtisas kateqoriyasına və ya pedaqoji ada layiq görülsün”, - deyə Ombudsmanın mətbuat xidməti qeyd edir.

Qeyd olunur ki, sertifikatlaşdırma müəllimlərin peşəkar səlahiyyətlərinin xarici qiymətləndirilməsidir. Onun məqsədi bacarıqlı, tədris metodlarını və yeni təhsil texnologiyalarını bilən, onların yayılmasına kömək edən yüksək səviyyəli müəllimləri müəyyənləşdirmək və təşviq etməkdir. Ukraynada sertifikatlaşdırmadan uğurla keçmək əməkhaqlarında 20% artım əldə etməyə imkan verir və növbəti (növbədənkənar) attestasiyadan keçmək kimi qiymətləndirilə bilər.

**Rusiya Federasiyasında** pedaqoji kadrların peşəkar standartına yönəldilmiş sertifikatlaşdırılma sisteminin tətbiqində xarici təcrübədən fəal istifadə olunur. Xarici təcrübənin təhlili deməyə əsas verir ki, müəllimlərin peşə ixtisaslarının və səriştələrinin sertifikatlaşdırılması təhsilin yüksək keyfiyyətini təmin etmək üçün səmərəli ictimai-dövlət tədbiri ola bilər. Rusiyada attestasiyanın əsas vəzifələri aşağıdakı kimi müəyyən olunub:

- pedaqoji işçilərin ixtisas səviyyəsinin, onların metodoloji mədəniyyətinin, şəxsi peşə inkişafının məqsədyönlü, fasiləsiz yüksəldilməsi, onlarda müasir pedaqoji texnologiyalardan istifadənin təşviqi;
- pedaqoji əməyin səmərəliliyinin və keyfiyyətinin artırılması;
- pedaqoji işçilərin potensial imkanlarından istifadə perspektivlərinin müəyyənləşdirilməsi;
- təhsil müəssisələrinin kadr heyətinin formalaşdırılması zamanı dövlət təhsil standartlarının tələblərinin nəzərə alınması;
- pedaqoji işçilərin ixtisasının artırılması zərurətinin müəyyənləşdirilməsi;
- Pedaqoji işçilərin əməkhaqqı səviyyəsinin fərqləndirilməsini təmin etmək.

**Qazaxıstanda** isə normativ-hüquqi sənədlərdə edilən dəyişikliklərə müvafiq olaraq bu ildən pedaqoji ali məktəblərin məzunlarının sertifikasiyasına başlanılıb. Normativ-hüquqi sənədlərdəki dəyişikliklərə uyğun olaraq, artıq bu ixtisasa daxil olacaq pedaqoji istiqamətlərin məzunları sertifikatlaşdırmadan keçəcəklər. Yəni, bu peşəyə ilk dəfə başlayanlar milli ixtisas testinin sertifikatına sahib olmalıdırlar. Onlar məktəbə qəbul edildikdən sonra pedaqoji bacarıqlarını praktikada göstərməli, sertifikat almalı, pedaqoji ixtisas dərəcəsi əldə etməli və yalnız bundan sonra müəllim kimi işləyə bilərlər.

Beləliklə, müasir çağırışlar dövründə Yeni Müəllimin hazırlanması dünyanın fərqli ölkələrində həyata keçirilən sertifikasiya proseslərinin əsas hədəfi olmaqla, xüsusi aktuallıq kəsb etməkdədir. Bu məsələ həm də 2030-cu ilədək BMT-nin əsas hədəflərindən olan IV Dayanıqlı İnkişaf Məqsədlərinə (Keyfiyyətli təhsil) nail olunmasını nəzərdə tutur ki, məqsəd yaxın 10 il ərzində ixtisaslı müəllimlərin sayının artırılmasını təmin etməkdir.

**Oruc MUSTAFAYEV**

**ABŞ-da** Milli Şura tərəfindən təşkil olunan sertifikatlaşdırma - peşəkar pedaqoji ictimaiyyətin iştirakı ilə aparılan, könüllü, praktikaya yönəldilmiş, müəllim əməyinin mürəkkəb, çoxşaxəli xarakterini nəzərə alan prosesdir.

Sertifikatlaşdırma 25 fənn sahəsi və 7 yaş kateqoriyası üzrə aparılır. Sertifikat 5-10 il müddətində qüvvədədir. Müəyyən edilmiş müddət başa çatdıqdan sonra onu yeniləmək olar.

**Avstraliyada** sertifikatlaşdırmanın vəzifələri aşağıdakılardır:

- müəllimin təmin etdiyi tədrisin keyfiyyətini müəyyənləşdirmək;
- müəllimlərə peşə fəaliyyətində özünürefleksiya (özünü təqdimetmə) imkanı vermək;
- nəticələrinin tanınması və ya təhsil müəssisələrinin yüksəkixtisaslı, aparıcı əməkdaşlarının mükafatlandırılması/təşviqi ilə keyfiyyətli tədris sisteminin təmin edilməsi.

**Yaponiyada** sertifikasiya prosesində “üç səviyyəli sınaq” tətbiq olunur: 1)pedaqoji nəzəriyyə üzrə test; 2)konkret fənn materialını dərindən bilmək, metodik bacarıq və səriştələr; 3)namizədlə müsahibə, o cümlədən müəllimin kommunikativ səriştələrinin, komandada işləmək bacarığının, peşəkar bacarıqlarının, dəyərli mövqelərinin qiymətləndirilməsi.